AZƏRBAYCANIN BÜTÖVLÜYÜ, MÜSTƏQİLLİYİ VƏ TƏRƏQQİSİ

# RESPUBLİKA

TƏSİSÇİ: AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN İŞLƏR İDARƏSİ VƏ QƏZETİN REDAKSİYA HEYƏTİ

1 İYUL 2018-ci il BAZAR № 142 (6175) GÜNDƏLİK İCTİMAİ-SİYASİ, SOSİAL-İQTİSADİ QƏZET WWW.RESPUBLICA-NEWS.AZ

## Kanadanın General-Qubernatoru Zati-aliləri xanım Jüli Peyetə

Hörmətli xanım General-Qubernator,

Milli bayramınız - Kanada Günü münasibətilə Sizi və bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından səmimi qəlbdən təbrik edirəm.

Belə bir əlamətdar gündə Sizə və dost Kanada xalqına daim əmin-amanlıq və firavanlıq diləyirəm.

*Hörmətlə,*

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 28 iyun 2018-ci il.**

## Burundi Respublikasının Prezidenti Zati-aliləri cənab Pyer Nkurunzizaya

Hörmətli cənab Prezident,

Burundi Respublikasının milli bayramı - Müstəqillik Günü münasibətilə Sizə və xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi və xoş arzularımı yetirirəm.

*Hörmətlə,*

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 28 iyun 2018-ci il.**

## Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

Əziz Qardaşım cənab İlham Əliyev.

Sizə və ailənizə möhkəm cansağlığı, yüksək əhval-ruhiyyə diləyirəm. Ramazan ayını əmin-amanlıq içərisində başa çatdıran qardaş Azərbaycan xalqının daha neçə belə bayramlara qovuşmasını Allah-Təaladan arzu edirəm.

Bu ilin aprel ayında keçirilən seçkilərdə Azərbaycan xalqının etimad göstərərək Sizi yenidən Prezident seçməsini böyük məmnunluq hissi ilə qarşıladım. Ulu öndərimiz mərhum Heydər Əliyevin bu günə qədər müvəffəqiyyətlə davam etdirdiyiniz siyasətini eyni inam və qətiyyətlə daha da inkişaf etdirəcəyinizə əmin olaraq təbriklərimi çatdırıram. Qarabağ başda olmaqla mürəkkəb məsələlərin öhdəsindən gəlməyinizi, Azərbaycanın müstəqil, sabit və rifah içərisində yaşayan ölkə olaraq qazandığı uğurlarının yüksələn xətlə davam etməsini arzulayıram.

2017-ci il aprelin 11-12-də Bakıya səfərim zamanı mənə və məni müşayiət edən şəxslərə göstərdiyiniz qonaqpərvərlik, qədirbilənlik və alicənablığı unutmuram. Həmin səfər zamanı Sizə bəhs etdiyim təhsil işlərinə və xüsusilə anadan olduğum Kayseri şəhərində mənim adıma olan universitet ilə maraqlanmağınız və dəstək verməyinizə görə təşəkkürümü bildirirəm. Minnətdarlığımızın kiçik nişanəsi olaraq 375 tələbənin yaşadığı yataqxanaya böyük şərəflə ulu öndərimiz Heydər Əliyevin adını verdik. Bu yataqxananın xidmətindən istifadə edən tələbələr müasir müstəqil Azərbaycanın memarı və qurucusu olan Ulu Öndəri tanıyacaq və minnətdarlıq hissi ilə yad edəcəklər.

Fürsətdən istifadə edərək, Sizi və dəyərli həyat yoldaşınız Mehriban xanımı bayramlar münasibətilə bir daha təbrik edirəm.

Əziz Qardaşım cənab İlham Əliyev, Zati-alinizə və Azərbaycan xalqına xoşbəxtlik arzu edirəm.

*Dərin hörmətlə,*

**Abdullah Gül**
**Türkiyə Respublikasının 11-ci Prezidenti**

## Azərbaycan Respublikasının Əmək Məcəlləsində dəyişikliklər edilməsi haqqında

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 8-ci və 16-cı bəndlərini rəhbər tutaraq, "Hərbi vəziyyət haqqında" Azərbaycan Respublikasının 2017-ci il 14 fevral tarixli 530-VQ nömrəli Qanununun tətbiqi ilə əlaqədar **qərara alır:**

Azərbaycan Respublikasının Əmək Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, N 4, maddə 213; 2001, N 3, maddə 143, N 6, maddə 362, N 11, maddələr 672, 679, N 12, maddə 731; 2002, N 1, maddə 2, N 5, maddə 241, N 6, maddə 328; 2003, N 1, maddələr 9, 23; 2004, N 1, maddə 10, N 2, maddə 57, N 3, maddə 133, N 6, maddə 413, N 7, maddə 505, N 9, maddə 672, N 12, maddə 981; 2005, N 3, maddə 151, N 4, maddə 278, N 7, maddə 560, N 10, maddə 874, N 11, maddə 1001, N 12, maddə 1094; 2006, N 3, maddələr 220, 222, N 5, maddə 385, N 11, maddə 923, N 12, maddələr 1004, 1025, 1030; 2007, N 5, maddələr 401, 437, N 6, maddə 560, N 8, maddə 756, N 11, maddələr 1049, 1053; 2008, N 3, maddə 156, N 7, maddələr 600, 602, N 10, maddə 887, N 11, maddə 960; 2009, N 2, maddə 48, N 5, maddə 294, N 6, maddə 399, N 12, maddələr 949, 969; 2010, N 2, maddələr 70, 75, N 4, maddə 275; 2011, N 1, maddə 11, N 2, maddələr 70, 71, N 6, maddə 464, N 7, maddə 598; 2012, N 11, maddə 1054; 2013, N 2, maddələr 89, 101, N 11, maddə 1268; 2014, N 2, maddə 92, N 10, maddə 1162, N 11, maddə 1339, N 12, maddə 1527; 2015, N 2, maddə 97, N 3, maddə 250, N 6, maddə 680; 2016, N 2 (I kitab), maddələr 190, 201, N 5, maddə 847, N 11, maddə 1767; 2017, N 6, maddələr 1031, 1048; N 12 (I kitab), maddələr 2187, 2189; 2018, N 1, maddə 13) aşağıdakı dəyişikliklər edilsin:

**1.** 32-ci maddənin 4-cü hissəsinə "fəaliyyətinə xitam verilməsi" sözlərindən sonra "və ya fəaliyyətinin dayandırılması" sözləri əlavə edilsin.

**2.** 99-cu maddənin 2-ci hissəsinə "habelə" sözündən əvvəl "hərbi vəziyyət rejiminin təmin edilməsi," sözləri əlavə edilsin.

**3.** 134-cü maddəyə aşağıdakı məzmunda 6-cı hissə əlavə edilsin:

"6. Hərbi vəziyyət dövründə səfərbərlik planlarına (tapşırıqlarına) uyğun olaraq əmək məzuniyyəti başqa vaxta keçirilə bilər.".

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 1 may 2018-ci il.**

## "Azərbaycan Respublikasının Əmək Məcəlləsində dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının 2018-ci il 1 may tarixli 1096-VQD nömrəli Qanununun tətbiqi barədə

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu bəndini rəhbər tutaraq, "Azərbaycan Respublikasının Əmək Məcəlləsində dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının 2018-ci il 1 may tarixli 1096-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədi ilə **qərara alıram:**

**1.** Azərbaycan Respublikasının Nazirlər Kabineti:

*1.1.* Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının "Azərbaycan Respublikasının Əmək Məcəlləsində dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

*1.2.* Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

*1.3.* mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

*1.4.* həmin Qanundan irəli gələn digər məsələləri həll etsin.

**2.** Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların "Azərbaycan Respublikasının Əmək Məcəlləsində dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 25 iyun 2018-ci il.**

## "Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin fəaliyyətinin təmin edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 5 sentyabr tarixli 706 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

"Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin fəaliyyətinin təmin edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 5 sentyabr tarixli 706 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, N 9, maddə 858; 2013, N 2, maddə 109, N 3, maddə 254, N 4, maddə 377; 2014, N 2, maddə 117, N 7, maddə 486, N 9, maddə 1044; 2015, N 6, maddə 708, N 8, maddə 917, N 10, maddə 1122; 2016, N 2 (II kitab), maddə 251, N 5, maddə 852, N 8, maddə 1384, N 9, maddə 1464; 2017, N 2, maddə 174, N 4, maddə 565, N 5, maddə 809, N 8, maddə 1531; 2018, N 3, maddə 437) 4-cü hissəsində "655" rəqəmləri "715" rəqəmləri ilə əvəz edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 26 iyun 2018-ci il.**

# Azərbaycan Ordusunun döyüş qabiliyyəti ən yüksək səviyyədədir

## *İlham ƏLİYEV: "Bir neçə il ərzində ardıcıl siyasət nəticəsində, o cümlədən dost ölkələrlə səmərəli əlaqələr sayəsində dünyanın ən müasir silahlarını əldə etmişik və bu proses davam etdiriləcəkdir"*

**Ümummilli lider Heydər Əliyevin müstəsna xidmətləri sayəsində formalaşan Azərbaycan Ordusu bu gün inkişafının yeni mərhələsində Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi altında öz hərbi potensialını durmadan artırır. Azərbaycan Silahlı Qüvvələrinin 100 illiyi münasibətilə Bakıda keçirilən hərbi parad təsdiq etdi ki, ordumuz sürətlə inkişaf edərək arsenalını ən müasir silah və hərbi texnika ilə zənginləşdirmişdir. Hazırda dünyanın hərbi cəhətdən inkişaf etmiş dövlətlərinin malik olduqları strateji silahlar Azərbaycanda da mövcuddur. Hərbi paradda nitq söyləyən Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev bildirib ki, 2003-cü ildən başlayaraq bütün istiqamətlər üzrə işlər sürətlə gedir, o cümlədən ordu quruculuğu sahəsində. Ordu quruculuğu bizim üçün ən başlıca, ən prioritet məsələdir: "Bu da təbiidir. Çünki biz müharibə şəraitində yaşayırıq. Müharibə hələ bitməyib. Müharibənin birinci mərhələsi başa açıb. Bizim əsas vəzifəmiz ölkəmizin ərazi bütövlüyünü bərpa etməkdir".**

Məlumat üçün bildirək ki, hərbi paradda Müdafiə, Daxili İşlər, Fövqəladə Hallar nazirliklərinin, Dövlət Təhlükəsizliyi, Dövlət Sərhəd və Xüsusi Dövlət Mühafizə xidmətlərinin, eləcə də Türkiyə Respublikası Silahlı Qüvvələrinin parad heyətindən ibarət 4 min nəfərədək şəxsi heyəti iştirak edirdi. Təntənəli mərasimdə 240-dan çox hərbi texnika, gəmilər, 70-dən artıq uçuş vasitəsi, o cümlədən silahlanmaya yeni qəbul edilmiş ən müasir zirehli texnikalar, raket və artilleriya qurğuları, hava hücumundan müdafiə sistemləri, helikopterlər, pilotsuz uçuş aparatları kimi müxtəlif növ ən yeni silah və texnikalar nümayiş olundu. Paradda, həmçinin Türkiyə, Pakistan, Belarus, Bəhreyn, Birləşmiş Ərəb Əmirlikləri, Gürcüstan, İran, İsrail, Qazaxıstan, Özbəkistan, Rusiya, Səudiyyə Ərəbistanı və Ukraynadan olan 100-dək nümayəndə iştirak etdi. Parad göstərdi ki, bu gün Azərbaycan Silahlı Qüvvələri maddi-texniki bazası, intellektual potensialı möhkəmlənmiş, istənilən döyüş tapşırığını ən yüksək səviyyədə yerinə yetirməyə qadir olan və müasir tələblərə cavab verən bir ordudur.

2016-cı ilin məlum aprel döyüşlərində düşmənin hərbi təxribatının qarşısının alınması zamanı çevik və mütəşəkkil hərbi əməliyyatlarla düşmənin hərbi obyektlərini darmadağın edən, bir sıra mövqelərini ələ keçirən və bəzi yaşayış məntəqələrini işğaldan azad edən Silahlı Qüvvələrimiz bunu bir daha sübuta yetirdi. Azərbaycan Ordusunun qısa zamanda həyata keçirdiyi uğurlu əməliyyatlar düşmənin çoxlu sayda canlı qüvvəsinin və zirehli texnikasının, habelə strateji əhəmiyyətli hərbi bazalarının güclü atəş zərbəsi ilə məhv edilməsi, strateji mövqelərin geri qaytarılması xalqın böyük coşqusu, sevinci və mənəvi dəstəyi ilə qarşılandı. Təhlilçilərin də qeyd etdiyi kimi bununla da bir daha təsdiqləndi ki, ən müasir texnika və hərbi avadanlıqlarla təchiz olunmuş Azərbaycan Respublikasının Silahlı Qüvvələri vətənpərvər, yüksək döyüş hazırlığına və ruhuna malik, hərbi-texniki vərdişlərə dərindən yiyələnmiş peşəkar kadrlardan ibarətdir və Ali Baş Komandanın əmri ilə qısa zamanda torpaqlarımızı işğaldan azad etməyə qadirdir.

Aprel döyüşlərində Azərbaycan Ordusunun uğurlu əks-hücum əməliyyatının önəmini vurğulayan cənab İlham Əliyev bildirib ki, Ağdərə, Füzuli, Cəbrayıl rayonlarının bir hissəsi işğalçılardan azad edildi, iki min hektar ərazi təmizləndi: "Uğurlu əks-hücum əməliyyatı nəticəsində minlərlə hektar torpağa bu gün Azərbaycan Ordusu nəzarət edir. Ermənilərin torpaqlarımızda, işğal edilmiş torpaqlarda qazdıqları səngərlərdə bu gün bizim əsgərlərimiz xidmət göstərir. Lələtəpədə bizim bayrağımız dalğalanır. Biz strateji yüksəklikləri əldə etmişik və bu, bizə çox böyük üstünlük verir. Aprel döyüşləri bizim şanlı qələbəmizdir. Azərbaycan əsgəri, zabiti, generalı — Azərbaycan ordusu əsl qəhrəmanlıq, peşəkarlıq, rəşadət göstərmişdir. Bir daha göstərmişdir ki, Azərbaycan xalqı bu işğalla barışmayacaq. Bir daha göstərmişdir ki, Ermənistan tərəfindən onların ordusu ilə bağlı uzun illər ərzində yayılan nağıllar mif idi. Biz bu mifi darmadağın etdik. Biz onların illər boyu yaratdıqları dırnaqarası möhkəm müdafiə xəttini bir neçə gün ərzində yardıq, məhv etdik. Aprel döyüşləri tariximizin şanlı səhifəsidir".



Bu gün Azərbaycanın hərbi sənaye kompleksində istehsal olunan müasir hərbi təyinatlı məhsullar Silahlı Qüvvələrin potensialını artırır. Müdafiə sənayesinin 20-dən çox hərbi zavodunda 1200 adda hərbi təyinatlı müxtəlif məhsullar istehsal olunur, ordunun təchizatı ən yüksək səviyyədədir. Azərbaycanın müdafiə sənayesinin məhsullarının ixrac coğrafiyası da artıq böyüməkdədir. Müxtəlif ölkələrin hərbi sənaye kompleksləri ilə əməkdaşlıq və bu əlaqələrin dərinləşməsi ölkəmizin müdafiə qabiliyyətini artırır. İnamla deyə bilərik ki, Azərbaycan Silahlı Qüvvələri peşəkarlığına və hərbi təchizatına görə ən müasir ordulardan biridir.

Bundan sonra Azərbaycan ordusu hər an hazır olmalıdır ki, öz ərazi bütövlüyünü bərpa etsin, — deyən dövlət başçısı cənab İlham Əliyev bəyan edib ki, münaqişənin sülh yolu ilə həllini istəyirik və tərəfimizdən aparılan siyasət bunun əyani sübutudur: "Ancaq bir daha demək istəyirəm ki, biz bu vəziyyətlə heç vaxt barışmayacağıq. Biz çox güclü ordu yaratmışıq. Düşmən bilməlidir ki, onun bir dənə də olsun hərbi və strateji obyekti yoxdur ki, Azərbaycan ordusu onu məhv edə bilməsin. Düşmənin bütün hərbi obyektləri, bütün strateji əhəmiyyətli məntəqələri Azərbaycan Ordusu tərəfindən məhv edilə bilər".

Azərbaycan Silahlı Qüvvələrinin 100 illiyi münasibətilə Bakıda təntənəli hərbi paradda nümayiş etdirilən bütün növ silahlar həm xalqımıza, həm düşmənə, həm də bütün dünyaya bunu bir daha göstərdi. Dövlət başçısı cənab İlham Əliyevin də bəyan etdiyi kimi münaqişənin tezliklə danışıqlar yolu ilə ədalətli həlli, Azərbaycanın ərazi bütövlüyünün tezliklə bərpa edilməsi işğalçı ölkənin də marağında olmalıdır.

**Şükür ƏLİZADƏ,**
**"Respublika".**

# Yeni Azərbaycan Partiyasının rayon və şəhər təşkilatları sədrlərinin ümumrespublika müşavirəsi keçirilib





**İyunun 30-da Yeni Azərbaycan Partiyasının (YAP) rayon və şəhər təşkilatları sədrlərinin ümumrespublika müşavirəsi keçirilib.**

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikası Baş nazirinin müavini, YAP sədrinin müavini - icra katibi Əli Əhmədov müşavirənin qarşıda duran vəzifələrə həsr olunduğunu bildirib. Bu tədbirin 11 aprel prezident seçkilərindən sonra keçirilən ilk müşavirə olduğunu deyən Əli Əhmədov qeyd edib ki, prezident seçkiləri kampaniyasında partiyanın yerli strukturları yüksək fəallıq göstəriblər. Seçki kampaniyasının bütün mərhələlərində partiyamız və onun bütün fəalları, eləcə də gənclər xüsusilə fərqləniblər. O, Yeni Azərbaycan Partiyasının sədri, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin seçki kampaniyasında partiyamızın üzvlərinin aktiv iştirakını yüksək dəyərləndirdiyini deyib və buna görə də dövlət başçısının təşəkkürünü YAP fəallarına, rayon və şəhər təşkilatlarına çatdırıb.

"Seçki kampaniyası dövründə ictimai rəy cənab İlham Əliyevin qələbə qazanacağını şərtləndirirdi. Çünki son 15 ildə qazanılan böyük nailiyyətlər partiyamızın sədri, dövlət başçısı İlham Əliyevin xalqımız tərəfindən birmənalı olaraq dəstəkləndiyini özündə ehtiva edirdi. Buna görə də 11 aprel prezident seçkilərində ölkə vətəndaşları bir daha Heydər Əliyev siyasətinə və bu siyasəti uğurla davam etdirən cənab İlham Əliyevə səs verdi", - deyən YAP sədrinin müavini söyləyib ki, qarşıdakı 7 il ərzində də Azərbaycanda Heydər Əliyev siyasəti uğurla davam edəcək və ölkəmizə yeni-yeni nailiyyətlər qazandıracaq. Növbəti 7 il ərzində Azərbaycanın beynəlxalq müstəvidə mövqeyi daha da güclənəcək, iqtisadiyyatımız daha da inkişaf edəcək və əhalinin rifahı yüksələcək.

Bu ilin Azərbaycan üçün əlamətdar hadisələrlə zəngin olduğunu deyən Əli Əhmədov Azərbaycan Xalq Cümhuriyyətinin yaradılmasının 100 illiyinin qeyd olunmasını mühüm hadisə kimi səciyyələndirib. İyunun 26-da Azərbaycan Silahlı Qüvvələrinin yaradılmasının 100 illiyi münasibətilə keçirilən hərbi parad isə dövlətimizin və ordumuzun gücünü nümayiş etdirdi.

Seçkilərin hər bir siyasi partiyanın fəaliyyətinin əsasını təşkil etdiyini deyən Əli Əhmədov qeyd edib ki, Yeni Azərbaycan Partiyası da hər bir seçkiyə daim yüksək məsuliyyətlə yanaşır. Çünki siyasi partiyaların əsas vəzifəsi seçkilərdə iştirak etmək və uğur qazanmaqdır.

Ölkəmizdə 2019-cu ildə bələdiyyə, 2020-ci ildə isə parlament seçkilərinin keçiriləcəyini diqqətə çatdıran YAP sədrinin müavini partiyamızın bu seçki kampaniyalarında da yüksək fəallıq və uğurlu nəticə göstərəcəyinə əminliyini ifadə edib.

Müşavirədə qarşıda duran vəzifələrlə əlaqədar partiyanın yerli strukturlarına tövsiyə və tapşırıqlar verilib.

**AZƏRTAC**

# Polis Akademiyasında 2017-2018-ci tədris ilinin buraxılışına həsr olunan təntənəli mərasim keçirilib





**İyunun 30-da - Azərbaycan Polisinin 100 illik yubileyi ərəfəsində Daxili İşlər Nazirliyinin (DİN) Polis Akademiyasında 2017-2018-ci tədris ilinin buraxılışına həsr olunan təntənəli mərasim keçirilib.**

Azərbaycan Respublikasının daxili işlər naziri, general-polkovnik Ramil Usubov tədbirdə iştirak edib.

Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Polis Akademiyasının rəisi, polis general-mayoru Nazim Əliyev şəxsi heyətin təntənəli mərasimə hazır olması barədə general-polkovnik Ramil Usubova raport verib.

Nazir Polis Akademiyasının müəllim və müdavim heyətini əlamətdar hadisə münasibətilə təbrik edib.

Tədbir iştirakçıları xalqımızın ümummilli lideri Heydər Əliyevin, Azərbaycanın suverenliyi və ərazi bütövlüyü uğrunda canlarını fəda etmiş, xidməti borcu yerinə yetirərkən həlak olmuş polis əməkdaşlarının xatirəsini bir dəqiqəlik sükutla yad ediblər. Azərbaycan Respublikasının dövlət himni səsləndirilib.

Polis general-mayoru Nazim Əliyev bu ali polis təhsil ocağında təlim-tədris prosesinin təkmilləşdirilməsi və maddi-texniki bazanın daha da möhkəmləndirilməsi istiqamətində görülən işlər barədə məruzə ilə çıxış edib. Qeyd olunub ki, əsas təyinatı daxili işlər orqanları üçün ali hüquq təhsilli kadrların hazırlanması olan Polis Akademiyasının rəhbərliyi və pedaqoji kollektivi tədris prosesinin təkmilləşdirilməsi, peşəkarlıq xüsusiyyətlərinin formalaşdırılması, onların intellektual, mədəni və mənəvi inkişafı ilə bağlı vəzifələri 2017-2018-ci tədris ilində də layiqincə yerinə yetirməyə çalışıb. Prezident İlham Əliyevin ali diqqət və qayğısı, DİN rəhbərliyinin, şəxsən daxili işlər nazirinin tələb, tövsiyə və tapşırıqlarının nəticəsi olaraq Akademiyanın maddi-texniki bazasının gücləndirilməsi istiqamətində işlər davam etdirilib.

Daxili işlər naziri, general-polkovnik Ramil Usubov təntənəli mərasimdə çıxış edərək Polis Akademiyasının təyinatına uyğun olaraq daxili işlər orqanlarının ixtisaslı kadrlarla təminatında mühüm rol oynadığını vurğulayıb. Nazir 1921-ci ildə sıravi milis nəfərləri və komandir heyəti hazırlayan bu təhsil müəssisəsinin böyük inkişaf yolu keçərək Akademiya səviyyəsinədək yüksəldiyini, onun məzunlarının hazırda daxili işlər orqanlarında xidmətdə olan zabit heyətinin əsas özəyini təşkil etməklə, bir çoxlarının müxtəlif rəhbər vəzifələrə irəli çəkildiyini bildirib.

Daxili işlər orqanlarında xidmətin böyük vətəndaşlıq məsuliyyəti, cəsarət, şəxsi mətanət, bilik, elm, təhsil və təcrübə tələb etdiyini vurğulayan, polisin peşəkarlıq səviyyəsini daim artırmasını bir vəzifə kimi qarşıya qoyan ümummilli liderimiz Heydər Əliyevin 2002-ci ildə Azərbaycan Polisinin yaranmasının 84-cü ildönümünə həsr olunmuş təntənəli mərasimdə Akademiyanın yüksək standartlar səviyyəsində yenidən qurulmasına dair verdiyi konkret tapşırıqların bu ali təhsil müəssisəsinin inkişafında əhəmiyyətli rol oynadığı xüsusilə qeyd edilib.

General-polkovnik Ramil Usubov 2003-cü ildən etibarən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə aparılan quruculuq işlərinin və islahatların Daxili İşlər Nazirliyinin digər orqan və hissələri ilə yanaşı, Polis Akademiyasını da əhatə etdiyini deyib. Nazir dövlətimizin başçısının burada görülən işlərlə iki dəfə şəxsən tanış olduğunu, dəyərli tövsiyələrini verdiyini, məhz onun böyük diqqət və qayğısı sayəsində Akademiyanın maddi-texniki bazasının gücləndiyini, təhsilin keyfiyyətinin yüksəldiyini vurğulayıb.

Məzunların həyatında yeni bir dövrün başlandığını nəzərə çatdıran daxili işlər naziri Akademiyanı müvəffəqiyyətlə bitirmələri münasibətilə onları, eləcə də valideynlərini və yaxınlarını bir daha təbrik edib, tapşırıq və tövsiyələrini verib, qarşıda duran vəzifələrdən danışıb. General-polkovnik Ramil Usubov qeyd edib ki, 100 illik yubileyini qeyd etməyə hazırlaşan Azərbaycan Polisinin sıralarına daxil olan məzunlar sabitliyi, təhlükəsizliyi, ictimai asayişi və xalqın əmin-amanlığını qorumaq kimi əhəmiyyətli funksiyaların icraçısı olaraq fəaliyyətə başlayırlar.

Nazir Ramil Usubov təntənəli mərasim iştirakçıları adından əminliklə bildirib ki, bu gün sıralarımıza qoşulan gənc zabit korpusu xalqımızın asayişinin, təhlükəsiz həyatının etibarlı qorunması işinə layiqli töhfələr verəcək, qanunla müəyyən edilmiş vəzifələri və qarşıya qoyulmuş tapşırıqları tam yerinə yetirəcək.

Tədbirin sonunda daxili işlər naziri Polis Akademiyasını fərqlənmə ilə bitirmiş məzunlara diplomları və "polis baş leytenantı" xüsusi rütbələrinin paqonlarını təqdim edib.

Əlaçı məzunlardan biri yaş kötüyünə rəmzi xatirə lövhəsini vurub.

Daha sonra döyüş bayrağı dördüncü kurs müdavimlərinə təhvil verilib. Müdavimlər "Azərbaycan Polisi" marşını ifa ediblər.

Sonda şəxsi heyət mətin addımlarla tribunanın qarşısından keçib.

**AZƏRTAC**

# Ədliyyə naziri Göyçayda vətəndaşları qəbul edəcək

**Azərbaycan Prezidenti İlham Əliyevin tapşırığına və bölgələrdə vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq, Azərbaycan Respublikasının ədliyyə naziri Fikrət Məmmədov tərəfindən iyulun 4-də Göyçay rayonunda vətəndaşların qəbulu keçiriləcək.**

Ədliyyə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Göyçay rayonundakı Heydər Əliyev Mərkəzində (ünvan: Göyçay şəhəri, Heydər Əliyev prospekti, 98) keçiriləcək qəbulda Göyçay, Ağdaş və İsmayıllı rayonlarından olan vətəndaşların ədliyyə fəaliyyəti ilə bağlı müraciətlərinə baxılacaq.

Vətəndaşlar qəbula Göyçay regional ədliyyə idarəsi (ünvan: Göyçay şəhəri, Nizami küçəsi, 111, əlaqə telefonu: (02027) 4-30-41, (050) 220-10-12), habelə Ədliyyə Nazirliyinin 510-10-01 (əlavə 2104), 055-925-37-41 nömrəli telefonları və contact@justice.gov.az elektron poçt ünvanı vasitəsilə, eləcə də Göyçay rayonundakı Heydər Əliyev Mərkəzində yazıla bilərlər.

Eyni zamanda, vətəndaşların rahatlığı üçün ədliyyə nazirinin həmin gün keçiriləcək qəbuluna elektron qaydada birbaşa yazılmaq imkanı yaradılıb. Bu məqsədlə Ədliyyə Nazirliyinin elektron xidmətlər portalına (www.exidmet.justice.gov.az) müraciət etmək lazımdır.

**AZƏRTAC**

# Azərbaycanın dövlətçilik tarixinə həsr olunmuş beynəlxalq elmi konfransda 90-dan çox məruzə dinlənilib



**"Azərbaycan Xalq Cümhuriyyəti: Azərbaycan dövlətçilik tarixinin parlaq səhifəsi" mövzusunda Gəncə şəhərində keçirilən beynəlxalq elmi-praktik konfrans işini yekunlaşdırıb.**

AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) A.A.Bakıxanov adına Tarix İnstitutu, Türkiyə Cümhuriyyəti Atatürk Araşdırma Mərkəzi, Türkiyənin Azərbaycandakı səfirliyi və Gəncə Şəhər İcra Hakimiyyətinin birgə təşkil etdikləri konfransın açılışı Heydər Əliyev Mərkəzində keçirilib.

Konfransda Azərbaycan Respublikası Prezidenti Katibliyinin rəisi - Prezidentin köməkçisi, tarix üzrə fəlsəfə doktoru, professor Dilarə Seyidzadə, AMEA-nın İctimai Elmlər Bölməsinin akademik-katibi, akademik Nərgiz Axundova, Tarix İnstitutunun direktoru, Milli Məclisin deputatı, akademik Yaqub Mahmudov, Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Elmar Vəliyev, Milli Məclisin deputatları, respublikamızda fəaliyyət göstərən bir çox elm və təhsil müəssisələrinin rəhbərləri, tanınmış elm xadimləri iştirak ediblər. Həmçinin 20 ölkədən (Rusiya, Pakistan, Hindistan, Gürcüstan, Misir, Özbəkistan, Şimali Kipr, Ukrayna, Belarus, Moldova, Polşa, Albaniya, Qazaxıstan və sair) ümumilikdə 40-a yaxın tarixçi-alim də beynəlxalq konfransda təmsil olunub.

Konfransın bölmələr üzrə elmi məruzələri hazırda Azərbaycan Dövlət Aqrar Universitetin əsas binası olan, vaxtilə Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin ilk iclaslarının keçirildiyi məkanda dinlənilib.

Üç gün ərzində davam edən konfransda 91 yerli və xarici ölkə alimlərinin Azərbaycan Xalq Cümhuriyyətinin ayrı-ayrı sahələrinə dair elmi məruzələri, həmçinin yeni mənbələr və arxiv sənədləri əsasında təqdim etdikləri araşdırmalar, səsləndirilən bir çox tarixi faktlar iştirakçılar tərəfindən maraqla qarşılanıb.

Tarix İnstitutunun direktoru, Milli Məclisin deputatı, akademik Yaqub Mahmudov son illər Azərbaycanda elmin bütün sahələri kimi tarix elminin də inkişaf etdiyini, tarixçi alimlərin səyi ilə aparılan elmi araşdırmalar nəticəsində qiymətli elmi faktların aşkarlandığını söyləyib.

Yaqub Mahmudov deyib ki, qısa müddətdə AMEA-nın Tarix İnstitutunda Azərbaycan tarixinin müxtəlif dövrlərini, xüsusən 1813-cü il Gülüstan və 1828-ci il Türkmənçay müqavilələrindən sonra böyük imperiyaların işğalçılıq siyasəti nəticəsində xalqımızın başına gətirilən faciələri, XX əsrin əvvəllərindən başlayaraq çar Rusiyasının havadarlığı ilə erməni-daşnak qüvvələrinin azərbaycanlılara qarşı həyata keçirdikləri soyqırımlarını, deportasiya və işğal kimi dəhşətli tarixi gerçəklikləri özündə əks etdirən çoxsaylı elmi əsərlər yazılıb və müxtəlif dillərdə nəşr olunub.

Məlumat verilib ki, tarixi həqiqətlərə əsaslanaraq və milli maraqlar nəzərə alınaraq, Azərbaycan tarix elminin yeni-yeni elmi əsərlərlə zənginləşdirilməsinin vacibliyi istiqamətində Prezident İlham Əliyevin verdiyi tapşırıqlara əsasən Tarix İnstitutu bu illər ərzində yeddi cildlik "Azərbaycan tarixi", həmçinin "Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası", "Azərbaycanın beynəlxalq münasibətlər və diplomatiya tarixi", "1991-2016-cı illər Azərbaycan Respublikasının Tarixi", "İrəvan tarixi", "Naxçıvan tarixi" kitablarını nəşr edib. Eləcə də Bakı, Quba, Şamaxı, Qarabağ, Naxçıvan və Zəngəzurda həyata keçirilən soyqırımlarına həsr edilmiş araşdırmalar, eləcə də orta əsr müəlliflərinin Azərbaycan ərazisində mövcud olmuş dövlətlərin tarixi barədə əsərləri tərcümə edilərək geniş oxucu auditoriyasına çatdırılıb. Yaxın vaxtlarda isə "Zəngəzur tarixi" kitabı işıq üzü görəcək.

Tarix üzrə fəlsəfə doktoru, professor, Azərbaycan Xalq Cümhuriyyəti tarixi problemini milli tarixşünaslığımıza gətirən görkəmli alim, Prezident Katibliyinin rəisi - Prezidentin köməkçisi Dilarə Seyidzadə hələ Azərbaycanın SSRİ-nin tərkibində olduğu illərdə Cümhuriyyət tarixinin araşdırılmasına cəhd göstərilməsini milli tarixşünaslıq elmimiz üçün böyük nailiyyət kimi dəyərləndirib.

Bildirilib ki, XX əsrin əvvəllərində dərin siyasi və iqtisadi böhran keçirən çar Rusiyasında elm, texnika və texnologiya zəif inkişaf etsə də, bir çox sahələrdə olduğu kimi, ali təhsildə də imperiyaya tərkibinə daxil olan xalqların nümayəndələrinə, xüsusən türk-müsəlman əhalisinə etimad göstərilmirdi. Mütləqiyyətin yaratdığı çətinliklərə baxmayaraq, dövrün açıq fikirli gəncləri və onların mənsub olduqları zadəgan ailələri övladlarının savadlanmasına, əsasən də ali təhsil almasına böyük səy göstərirdilər.

Professor Dilarə Seyidzadə qeyd edib ki, XIX əsrin ikinci yarısında Bakı və onun ətrafındakı neft yataqlarının yerli və xarici sahibkarlar tərəfindən istismar edilməsinə başlanıldı. Həmin dövrdən etibarən yeni neft quyularının qazılması, texnoloji yeniliklərin tətbiqi, eləcə də neft sənayesinin inkişafı üçün geniş infrastrukturun qurulmasının zəruriliyi ixtisaslı gənc kadrlara tələbatı artırırdı. Həmçinin neft satışından gələn gəlirlər hesabına iri həcmli kapitala malik olan milli burjuaziya həm yaratdıqları yeni istehsal və xidmət sahələrində işləyə biləcək ixtisaslı gənc kadrlara böyük ehtiyac hiss edirdi, həm də özləri Azərbaycanda elmin, təhsilin və mədəniyyətin inkişafı istiqamətində təşəbbüsləri dəstəkləyərək həmin sahələrin inkişafına maliyyə yardımı göstərirdi. Məhz bu iki amil və digər səbəblər sonrakı dövrlərdə Azərbaycan gənclərinin Rusiyanın və Avropanın qabaqcıl universitetlərində təhsil almasına və dövrün ziyalı gəncləri kimi yetişməsinə səbəb oldu.

Daha bir maraqlı faktı konfrans iştirakçılarının diqqətinə çatdıran professor Dilarə Seyidzadə vurğulayıb ki, çar Rusiyasının türk-müsəlman gənclərə etimadsızlığı və onların öz istəklərinə uyğun ixtisas seçimindən kənarda qalması səbəbindən azərbaycanlı gənclər əsasən hüquq təhsilinə meyil edirdilər. Elə bu amil də sonrakı illərdə mütləqiyyətin milli ucqarlardakı işğalçılıq planlarının əksinə olaraq, çar üsul-idarəsinin inqilab yolu ilə devrilməsindən sonra Azərbaycanda demokratik dəyərlərin bərqərar edilməsini, xalqın etimadına və hakimiyyətin bölgü prinsipinə əsaslanan hüquqi, dünyəvi, demokratik və parlament ənənəsinə əsaslanan mütərəqqi dövlətin yaradılmasını şərtləndirdi.

Azərbaycan Xalq Cümhuriyyətinin qurulmasında milli ziyalıların fədakar əməyini diqqətə çatdıran professor Dilarə Seyidzadə qeyd edib ki, Əlimərdan bəy Topçubaşov, İsmayıl xan Ziyadxanov, Xəlil bəy Xasməmmədov kimi ziyalıların siyasi fəaliyyəti yalnız Azərbaycanla məhdudlaşmayıb. Çünki bu şəxslər siyasi fəaliyyətə başladıqları ilk gündən çar Rusiyasının milli ucqarlardakı siyasətini, xüsusən imperiyanın türk-müsəlman əhalisinə qarşı həyata keçirdiyi ayrı-seçkilik və soyqırımı siyasətini tənqid edirdilər. İstər İsmayıl xan Ziyadxanovun Rusiya Dövlət Dumasında cəsarətli çıxışı, istərsə də Əlimərdan bəy Topçubaşovun Rusiya imperiyasının türkdilli və müsəlman əhalisinin hüquqlarının tanınması və həmin millətlərin siyasi cəhətdən maariflənməsi istiqamətindəki fəaliyyəti mühüm əhəmiyyət kəsb edib.

"Azərbaycan Xalq Cümhuriyyəti dövrü hər bir azərbaycanlının qürur mənbəyidir. Hazırda dünyanın demokratik ölkələri hələ 100 il bundan əvvəl Azərbaycan xalqının demokratik inkişaf yolu seçdiyinə, bütün Şərq aləmində ilk dəfə parlamentli respublika yaratdığına və qadınlara kişilərlə bərabər seçki hüququ verdiyinə, siyasi fəaliyyəti dövründə bir çox mütərəqqi addımlar atdığına, nəhayət, müasir Azərbaycan Respublikasının özünü Cümhuriyyətin siyasi varisi elan etdiyinə görə bizə sivil dünyanın siyasi-mədəni inkişafına böyük töhfələr bəxş etmiş xalqı kimi yanaşırlar", - deyə Dilarə Seyidzadə bildirib.

Sonra bir çox Azərbaycan və xarici ölkə alimlərinin məruzələri dinlənilib.

Sonda konfransda maraqlı məruzələrlə çıxış edən xarici ölkə alimlərinə sertifikatlar təqdim edilib.

**AZƏRTAC**

*Müdafiə naziri:*

# Münaqişə tezliklə ədalətli həll olunmazsa düşmən ordumuzun gücünü hiss edəcək

**İyunun 30-da müdafiə naziri, general-polkovnik Zakir Həsənovun rəhbərliyi ilə xidməti müşavirə keçirilib.**



Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, müdafiə nazirinin müavinləri, qoşun növləri komandanları, nazirliyin baş idarə, idarə, xidmət rəisləri, eləcə də birlik komandirlərinin iştirakı ilə keçirilən müşavirəyə videobağlantı vasitəsilə cəbhə bölgəsində yerləşən birləşmə komandirləri və digər məsul zabitlər də cəlb olunub.

Silahlı Qüvvələrin yaradılmasının 100 illik yubileyi münasibətilə hərbi qulluqçuları bir daha təbrik edən müdafiə naziri hərbi paradda iştirak etmiş şəxsi heyətin, eləcə də döyüş texnikasının və aviasiya vasitələrinin heyətlərinin hazırlığını yüksək qiymətləndirib. Nazir müxtəlif ölkələrdən bayram tədbirləri ilə əlaqədar Azərbaycana gəlmiş yüksək rütbəli hərbi nümayəndə heyətlərinin yubiley mərasimlərinin təşkilindən, xüsusilə də hərbi paradın keçirilməsindən məmnun qaldıqlarını diqqətə çatdırıb.

Prezident İlham Əliyevin Silahlı Qüvvələrə göstərdiyi diqqət və qayğını xüsusi vurğulayan general-polkovnik Z.Həsənov yüksək səviyyədə keçirilmiş bayram tədbirlərinin ölkəmizin hərbi qüdrətini və ordumuzun döyüş qabiliyyətini bütün dünyaya bir daha nümayiş etdirdiyini bildirib.

Cəbhədəki mövcud vəziyyətə toxunan müdafiə naziri qoşunların döyüş qabiliyyətinin, şəxsi heyətin döyüşə hazırlıq səviyyəsi, nizam-intizamı və döyüş növbətçiliyi zamanı sayıqlığının artırılmasına xüsusi diqqət yetirilməsinin vacibliyini vurğulayıb.

Ali Baş Komandanın çıxışlarında səsləndirdiyi "Torpaqlarımızın işğal altında qalması ilə heç vaxt barışmayacağıq" fikrini diqqətə çatdıran general-polkovnik Zakir Həsənov deyib: "Münaqişənin həllinin uzadılması onun yenidən və daha geniş miqyasda alovlanmasına aparır. Münaqişə tezliklə beynəlxalq hüququn norma və prinsiplərinə əsasən ədalətli həll olunmalıdır. Əks təqdirdə düşmən Azərbaycan xalqının əzmini və vətənpərvərliyini, eləcə də Ordumuzun silahının gücünü öz üzərində hiss edəcək".

İyulun 2-dən 6-dək cəbhə bölgəsində keçiriləcək genişmiqyaslı təlimlərə toxunan müdafiə naziri müvafiq vəzifəli şəxslər qarşısında konkret tapşırıqlar qoyub. Nazir qeyd edib ki, təlimlərdə əsas diqqət işğal olunmuş ərazilərin azad edilməsinin müxtəlif ssenariləri üzrə qoşunların tətbiqi və müvafiq döyüş tapşırıqlarının icrası, o cümlədən düşmənin bütün hərbi infrastrukturunun məhv edilməsi üçün nəzərdə tutulan ən müasir silah və hərbi texnikanın praktiki tətbiqinə yönəldilməlidir.

**AZƏRTAC**

# Aqrar Universitetdə akademik Cəlal Əliyevin 90 illik yubileyinə həsr olunan konfrans keçirilib





**Azərbaycan Dövlət Aqrar Universitetində (ADAU) görkəmli alim, tanınmış ictimai xadim, Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) həqiqi üzvü, Əməkdar Elm Xadimi, biologiya elmləri doktoru, professor Cəlal Əlirza oğlu Əliyevin anadan olmasının 90 illiyinə həsr edilən "Cəlal Əliyev Azərbaycan biologiya elminin ən görkəmli şəxsiyyətlərindən biridir" mövzusunda elmi-nəzəri konfrans keçirilib.**

Konfransda universitetin rektoru, AMEA-nın müxbir üzvü İbrahim Cəfərov akademik Cəlal Əliyevin biologiya elminin inkişafına verdiyi töhfələrdən, kənd təsərrüfatı bitkilərinin, əsasən buğdanın fotosintetik məhsuldarlığının nəzəri əsaslarının öyrənilməsində, fotosintez və fototənəffüs proseslərinin kompleks tədqiqində göstərdiyi xidmətlərdən danışıb.

Rektor qeyd edib ki, akademik Cəlal Əliyev yüksək dən keyfiyyətinə və məhsuldarlığa malik, Azərbaycanın buğda əkini sahəsinin böyük hissəsini təşkil edən, Türkmənistan, Özbəkistan və Gürcüstanda yaxşı nəticələr verən buğda sortlarını yaradıb, Azərbaycanda bitki genetik ehtiyatları üzrə Milli Proqram və biomüxtəlifliyin qorunması və səmərəli istifadəsi strategiyasını işləyib hazırlayıb, Bitki Genbankı yaradıb, "Azərbaycanın Qırmızı kitabı" nəşrinin baş redaktoru olub. Onun yaratdığı elmi məktəbin nümayəndələri nəinki Azərbaycanda, hətta dünyanın bir çox ölkələrində, o cümlədən MDB, ABŞ, Kanada, Yaponiya, Cənubi Koreya, Avstraliya, İsrail və Avropada aqrar elmin inkişafına töhfələr verirlər.

Konfransda AMEA-nın Molekulyar Biologiya və Biotexnologiyalar İnstitutu direktorunun elmi işlər üzrə müavini, dosent Ələmdar Məmmədov, bu elm müəssisəsinin laboratoriya müdiri, dosent Şəhriyar Bayramov, Kənd Təsərrüfat Nazirliyi Əkinçilik Elmi-Tədqiqat İnstitutunun bitki fiziologiyası və biotexnologiya şöbəsinin müdiri dosent Tofiq Allahverdiyev, ADAU-nun biologiya kafedrasının müdiri, professor Zaur Hümbətov, torpaqşünaslıq və aqrokimya kafedrasının müdiri, dosent Arif Hüseynov, ümumi əkinçilik, genetika və seleksiya kafedrasının müdiri, dosent Aynur Həsənova akademik Cəlal Əliyevin fundamental elmi araşdırmaları və nailiyyətlərinə dair maraqlı məruzələrlə çıxış edib, alimlə bağlı xatirələrini bölüşüblər.

AZƏRTAC

# "Karyerada ilk addım"

## *Tələbə və məzunlar üçün növbəti aktiv məşğulluq tədbiri*

**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Məşğulluq Xidməti tələbə və məzunlar üçün "Karyerada ilk addım" devizi altında növbəti aktiv məşğulluq tədbirini Bakı Biznes Universitetində təşkil edib. Tədbirin açılışında əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini Mətin Kərimli, universitetin rəhbərliyi ilə birgə, ölkəmizdə səfərdə olan Litva Respublikasının sosial təhlükəsizlik və əmək nazirinin müavini xanım Eqle Radisauskienenin başçılıq etdiyi nümayəndə heyəti, Avstriya Məşğulluq Xidmətinin İcraçı İdarə Heyətinin üzvü Tomas Hainlen, Avropa İttifaqının Tvinninq Layihəsinin nümayəndəsi Audra Mikalauskaite iştirak edib.**

Nazirliyin ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, Mətin Kərimli dövlət gənclər siyasətinə uyğun olaraq gənclərin məşğulluğunun artırılmasının diqqətdə saxlandığını, aktiv məşğulluq tədbirlərinin mühüm bir istiqamətinin də gənclərin əmək bazarına çıxış imkanlarının artırılmasına yönəldiyini vurğulayıb. Nazirliyin məşğulluq orqanları tərəfindən cari ilin yanvar-may aylarında işlə təmin edilən 35,3 min nəfərdən 9573-nün gənc olduğunu qeyd edən nazir müavini bildirib ki, həmçinin bu ilin 5 ayında məşğulluq orqanları tərəfindən 1317 nəfər üçün peşə hazırlığı və əlavə təhsil kursları təşkil olunub və onlardan 700 nəfərə qədərini gənclər təşkil edib. Nazirlik yanında Dövlət Sosial Müdafiə Fondunun 1 saylı Sağlamlıq imkanları məhdud gənclərin Peşə Reabilitasiya Mərkəzinə isə 80 nəfər gənc peşə təliminə qəbul edilib. Son beş ayda 63,2 min nəfər gəncə düzgün peşə seçimi aparmalarına köməklik məqsədilə peşəyönümü məsləhətləri verilib. Özünüməşğulluq proqramında da gənclərin iştirakına xüsusi önəm verilir və ötən il proqrama cəlb olunaraq kiçik ailə təsərrüfatlarını yaradanların 300 nəfərdən çoxu gənclər olub. "Karyerada ilk addım" devizi altında təşkil olunan tədbirlərin əhəmiyyətini qeyd edən nazir müavini burada əsas məqsədin gənclərin əmək bazarına inteqrasiyasının dəstəklənməsi, işəgötürənlərlə ilkin əlaqələr qurmaları üçün şərait yaradılması olduğunu bildirib.



Aktiv məşğulluq tədbirində 49-u özəl, 3-ü dövlət sektoruna aid 52 müəssisə tərəfindən 235 vakant iş yeri təqdim olunub və bu iş yerləri üzrə göndərişlər verilib. Tədbirdə vakant iş yeri təqdim edən müəssisələrin nümayəndələri də iştirak edib, tələbə və məzunlara onlarla ilkin əlaqələr qurmaq, işəgötürənlərə öz şəxsi məlumatlarını təqdim etmək, işəgötürənlərə gələcəkdə onlara lazım ola biləcək ixtisaslı kadr seçimi aparmaq imkanı yaradılıb. Tələbə və məzunlara əmək bazarında işəgötürənlərin peşə və ixtisaslara olan tələbləri haqqında ətraflı məlumatlar verilib.

**Mustafa KAMAL,**
**"Respublika".**

# "Azərkosmos" ASC-də "biznes-dövlət" mövzusuna dair seminar

"Azərkosmos" ASC-də "Social İnnovation Lab" innovasiya mərkəzinin təşəbbüsü ilə Azərbaycanda səfərdə olan ABŞ-ın Silikon Vadisinin eksperti Rik Rasmussenin "biznes-dövlət" mövzusuna dair seminarı keçirilib.

Seminarda Rik Rasmussen hökumət və biznes strukturları arasında qarşılıqlı əlaqələrin inkişaf istiqamətlərindən bəhs edib. Həmçinin, R.Rasmussen Silikon Vadisində startaplar və inkişaf mərhəsində olan şirkətlərlə hökumət arasında qurulan əməkdaşlıqlara dair əldə etdiyi təcrübəni bölüşüb və seminar iştirakçıları ilə fikir mübadiləsi aparıb.



Rik Rasmussen Kaliforniya Silikon Vadisinin və Berkli Universitetinin mütəxəssisidir. Dünyanın ən böyük biznes ideya müsabiqəsi olan "Climate Launchpad"ın beynəlxalq hakimlərindən biridir. "Sand Hill Angels" investisiya qrupunun aktiv üzvüdür.

"Social İnnovation Lab" innovasiya mərkəzi olmaqla özündə inkubasiya və müxtəlif akselerasiya proqramlarını birləşdirir. Mərkəzin məzunu "Rainergy" layihəsi ilə Azərbaycanı təmsil etmiş Reyhan Camalova Azərbaycan tarixində ilk dəfə olaraq "Forbes under 30" jurnalının siyahısına düşmüşdür.

**Bəybala BƏYBALAYEV,**
**"Respublika".**

*AZƏRBAYCAN POLİSİ - 100*

# DİN-in yaranması, təşəkkülü və inkişafı tarixinə bir nəzər

**"Daxili İşlər Nazirliyi əməkdaşlarının işi ağırdır, çətindir, məsuliyyətlidir və hətta çox vaxt onların həyatının təhlükə qarşısında qalması ilə bağlıdır. DİN-də işləmək, onun əməkdaşı, zabiti olmaq bir tərəfdən şərəflidir, ikinci tərəfdən də çox məsuliyyətli, əzab-əziyyətlidir. Bütün bunları bilirik, dövlət bunu məhz belə qiymətləndirir və xalqımızın əksəriyyəti də Daxili İşlər Nazirliyinin cəmiyyətimizdə, dövlətimizdə tutduğu görkəmli mövqeni qiymətləndirir, bu orqana və onun əməkdaşlarına hörmət, ehtiram bəsləyir".**

**Heydər ƏLİYEV,**
**ümummilli lider.**

Azərbaycanın dövlətçilik tarixinin mühüm bir hissəsi onun apardığı hüquq mühafizə siyasəti, bu siyasətin dayanıqlığı, dövlətin və əhalinin qanuni mənafelərinin, hüquqlarının qorunması, sabitliyin və asayişin təmini, bir sözlə dövlətçiliyin dönməz şəkildə qorunub saxlanması ilə bağlıdır. Təbii ki, ölkədə hüquq mühafizə siyasətinin həyata keçirilməsi sahəsində Daxili İşlər Nazirliyinin, polisin rolu müstəsnadır. Məhz bu baxımdan Azərbaycan polisinin yaranması, təşəkkülü və inkişafı tarixinə nəzər yetirdikdə onun keçdiyi keşməkeşli, təlatümlü, mübarizə dolu şərəfli yolu görməmək mümkün deyil.

Azərbaycanda polis funksiyasını yerinə yetirmiş orqanların tarixi dövlətçiliyimiz qədər qədimdir. Belə ki, hər bir Azərbaycan dövlətinin istər qədim, istərsə də orta əsrlər dövründə özünəməxsus hüquq mühafizə siyasəti və bu siyasəti həyata keçirən orqanları olmuşdur. Tarixən Azərbaycan dövlətlərində polis funksiyasını yerinə yetirmiş orqanlar dövlətçiliyin, ictimai təhlükəsizliyin və asayişin qorunub saxlanılması, ictimai qaydanın və insanların təhlükəsizliyinin təmin edilməsi, cinayətkarlığa qarşı mübarizə kimi mühüm vəzifələri həyata keçirmişlər.

Çar rusiyası tərəfindən Azərbaycan torpaqlarının işğalından Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasına qədərki dövr ərzində ruslar tərəfindən yaradılmış və çarizmə xidmət edən polis orqanları işğalçı imperiyanın maraqlarını qorumuş, ona qarşı çıxan qüvvələrə qarşı amansız mübarizə aparmışdır. Çarizmin süqutundan sonra Cənubi Qafqazda fəaliyyət göstərmiş müvəqqəti hökumət orqanları çar polisini ləğv edərək əvəzində milis adlanan təşkilat yaratmışdır, lakin onun fəaliyyəti qısa müddətli və elə də yaddaqalan olmamışdır.

1918-ci ilin may ayının 28-də özünün tarixi dövlətçilik ənənələrini bərpa etməyə nail olmuş Azərbaycan xalqı Şərqin ilk demokratik respublikası olan Azərbaycan Xalq Cümhuriyyətini yaratmışdır.

AXC dövlət strukturlarını formalaşdırarkən Daxili İşlər Nazirliyini də təsis etmiş və baş nazir Fətəli xan Xoyskinin 1918-ci il iyul ayının 2-də imzaladığı qərara əsasən ilk milli nizami polis orqanları yaradılmışdır. Azərbaycan milli polisi iki il ərzində xalqına və dövlətinə sədaqətlə xidmət etmiş, öz funksional vəzifələri ilə yanaşı, ölkə ərazisinin xarici müdaxilədən qorunması, hərbi səfərbərliyin təşkili, cəzaçəkmə müəssisələrinin idarə olunması kimi mühüm işləri də həyata keçirmişdir.

Lakin 1920-ci il aprel ayının 28-də Azərbaycanın Sovet Rusiyası tərəfindən işğalından sonra Azərbaycan Xalq Cümhuriyyətinin Daxili İşlər Nazirliyi və milli polis ləğv edilir, əvəzində Azərbaycan SSR Xalq Daxili İşlər Komissarlığı və onun nəzdində fəaliyyət göstərən Baş Fəhlə-Kəndli Milisi yaradılır. Azərbaycan milisi 1920-40-cı illərdə ölkədə asayişin mühafizəsi və cinayətkarlığa qarşı mübarizədə böyük fədakarlıq göstərmiş, Böyük Vətən Müharibəsi illərində isə onun döyüşlərdə iştirak edən şəxsi heyətinin yarıdan çoxu cəbhədə həlak olmuşdur. Azərbaycan SSR Xalq Daxili İşlər Komissarlığı 1946-cı ildən Daxili İşlər Nazirliyi, 1962-ci ildən Asayişi Mühafizə Nazirliyi, 1960-cı illərin sonlarından isə yenidən Daxili İşlər Nazirliyi adlandırılmışdır.

Azərbaycan SSR daxili işlər orqanlarının fəaliyyətində yüksəliş dövrü ümummilli lider Heydər Əliyevin ölkəyə rəhbərlik etdiyi 1969-1982-ci illərə təsadüf edir. Heydər Əliyevin rəhbərliyi ilə keçirilmiş 1969-cu il və 1982-ci il plenumlarında daxili işlər orqanlarının fəaliyyətinin gücləndirilməsi, onun peşəkarlığının daha da artırılması və inkişaf etdirilməsi ilə bağlı mühüm qərarlar qəbul edilmişdir. 1982-ci il plenumunda Heydər Əliyev daxili işlər orqanlarının kadr potensialının gücləndirilməsinə xüsusilə diqqət yetirərək qeyd etmişdi: "Cinayətkarlığa qarşı səmərəli mübarizədə hüquq-mühafizə orqanları kadrlarının seçilməsinin və yerləşdirilməsinin son dərəcə böyük əhəmiyyəti vardır. Bu orqanlar sınanmış və etibarlı işçilərlə, yüksək mənəvi-siyasi və professional keyfiyyətlərə malik işçilərlə möhkəmləndirilməlidir". Heydər Əliyev tərəfindən Arif Heydərovun və digər peşəkar, bacarıqlı əməkdaşların rəhbər vəzifələrə təyin olunması, nazirliyin kadr potensialının inkişaf etdirilməsi, onun iş prinsiplərinin daha da təkmilləşdirilməsi 70-80-ci illərdə daxili işlər orqanlarında böyük uğurların əldə olunmasına gətirib çıxarmışdır.

1980-ci illərin ikinci yarısı SSRİ-nin süqutunun labüdləşməsi və müttəfiq respublikalarda milli-azadlıq hərəkatlarının güclənməsi, milli zəmində münaqişələrin qızışdırılması, imperiyada başlanan xaos və anarxiya Azərbaycandan da təsirsiz ötüşmədi. Belə ki, 1987-ci ildən başlayaraq erməni separatizminin və şovinizminin güclənməsi, Dağlıq Qarabağda və ona qonşu rayonlarımızda baş verən erməni vandalizmi, terror aktları və nəhayət ki, elan olunmamış müharibə Azərbaycanın daxili işlər orqanları əməkdaşlarının da torpaqlarımızın müdafiəsi uğrunda mübarizəyə qatılmalarına səbəb olmuşdur. Hələ milli ordunun tam formalaşmadığı, yeni yaradılmış könüllü silahlı dəstələrdə özbaşınalığın hökm sürdüyü bir dövrdə yeganə mütəşəkkil silahlı birləşmə olan polis orqanları və daxili qoşunların nizami hissələri torpaqlarımızın müdafiəsi uğrunda mübarizəyə başladı. Torpaqlarımızın müdafiəsi uğrunda gedən döyüşlərdə daxili işlər orqanlarının və daxili qoşunların 1695 nəfər şəxsi heyəti şəhid olmuş, 1710 nəfər isə yaralanmışdır. DİN-in 67 nəfər əməkdaşı göstərdikləri şücaət və igidliklərə görə "Milli Qəhrəman" adına layiq görülmüş, 1143 nəfər isə müxtəlif orden və medallarla təltif edilmişdir.

1991-1993-cü illərdə, hələ dövlət müstəqilliyinin ilkin mərhələsində Azərbaycanda hakimiyyətdə xalqın etimad göstərdiyi siyasi qüvvənin olmaması dövlət idarəçiliyi mexanizmlərinin formalaşmasında ciddi maneəyə çevrilməklə ölkədə daxili böhran, vətəndaş itaətsizliyi, habelə qanunçuluğun və hüquq qaydasının təminatı, vətəndaşların azad, təhlükəsiz yaşamaq hüququnun, ictimai asayişin qorunması sahəsində əsaslı problemlər yaratmışdı. Həmin dövrün hadisələrinin ətraflı təhlilini verən ulu öndər Heydər Əliyev qeyd edirdi: "Vəziyyət elə təhlükəli xarakter almışdı ki, 1991-ci ildə yaranmış müstəqil dövlətimiz qəsdən və yaxud səriştəsizlikdən yaranan idarəsizlik nəticəsində real itirilmək təhlükəsi ilə üz-üzə qalmışdı". Beləliklə, 1992-1993-cü illərdə baş verən dəhşətli hadisələr - Gəncədə Surət Hüseynovun silahlı çıxışı, cənubda Əlikram Hümbətovun elan etdiyi qondarma "Talış-Muğan Respublikası", ölkənin digər regionlarında separatçılıq cəhdlərinin güclənməsi, işğalçı Ermənistanın hərbi təcavüzü, siyasi qüvvələr arasında hakimiyyət uğrunda gedən silahlı mübarizə, ölkə iqtisadiyyatının talan edilərək dağıdılması, xarici siyasət istiqamətlərinin və milli maraqların düzgün müəyyən olunmaması, dövlət təhlükəsizliyinin gözlənilməməsi yenicə müstəqilliyini əldə etmiş Azərbaycan Respublikasını parçalanmaq, süquta uğramaq təhlükəsi ilə üz-üzə qoymuşdu.

Müstəqilliyin ilk illərində hüquq-mühafizə orqanlarının, xüsusilə Daxili İşlər Nazirliyinin fəaliyyətində neqativ halların sayı artmış, nazirliyin iş səviyyəsi aşağı düşmüş, ölkədə kriminogen vəziyyət ağırlaşmışdı. Əsas səbəb isə AXC-Müsavat iqtidarı tərəfindən səriştəsiz və bacarıqsız insanların nazirlikdə rəhbər vəzifələrə təyin edilməsi, uzun illər bu orqanlarda xidmət etmiş peşəkar kadrların müxtəlif bəhanələrlə uzaqlaşdırılmaları, bu sahədə çalışan işçilərin qanunçuluğu kobud surətdə pozmaları, öz vəzifələrinə məsuliyyətsiz yanaşmaları, ən dəhşətlisi isə, peşə andına xəyanət etmələri ilə cəmiyyətdə həm siyasi, həm də mənəvi mühitə sarsıdıcı təsir göstərmələri olmuşdu.

Belə bir vəziyyətdə xalqın xahişi və təkidli tələbi ilə Azərbaycanda ikinci dəfə hakimiyyətə gələn Heydər Əliyev 1993-cü il iyunun 15-də Milli Məclisə sədr, sonra isə ölkə prezidenti seçildi. Heydər Əliyevin yenidən respublika rəhbərliyinə, bu dəfə müstəqil Azərbaycanın rəhbərliyinə qayıdışı ölkənin siyasi tarixinin ən məsul və ən şərəfli günlərindən biri kimi - 15 iyun 1993-cü il tarixə Milli Qurtuluş Günü kimi daxil oldu. Ulu Öndər qısa müddət ərzində atəşkəsə nail oldu, Azərbaycanı bir dövlət kimi məhv olmaq təhlükəsindən xilas etdi və dövlət quruculuğuna başladı.

Ümummilli liderin rəhbərliyi altında ölkəmizin daxili və xarici siyasət sahəsində əldə etdiyi uğurlar, onun beynəlxalq aləmə inteqrasiyası və nüfuzunun artması, Azərbaycanın demokratik, dünyəvi və hüquqi dövlətə çevrilməsi prosesi, sürətli iqtisadi, ictimai və mədəni inkişafı dövlət idarəetmə sisteminin bütün sahələrində hüquqi islahatların aparılmasını, mühüm dəyişikliklərin edilməsini zərurətə çevirirdi. Demokratik-hüquqi dövlət quruculuğu prosesini uğurla həyata keçirən ulu öndərin müəllifliyi ilə müstəqil Azərbaycanın ilk Konstitusiyası qəbul olundu, cinayətkarlığa qarşı mübarizənin gücləndirilməsi, ictimai-siyasi sabitliyin bərqərar olunması və bu sahədə hüquqi normativ bazanın yaradılması, ordu quruculuğu, düzgün xarici siyasət konsepsiyası, dövlət təhlükəsizliyinin təmini və xarici təhdidlərin aradan qaldırılması, insan hüquq və azadlıqlarının qorunması və inkişaf etdirilməsi, demokratik dövlət təsisatlarının formalaşdırılması istiqamətində böyük işlər görüldü. Ümummilli liderin rəhbərliyi altında aparılan demokratik, hüquqi islahatlar bütün dövlət strukturlarında, o cümlədən Daxili İşlər Nazirliyində də böyük uğurla həyata keçirilmiş və onun inkişafına səbəb olmuşdur.

DİN-in yenidən təşkili və inkişafı tarixində ən mühüm hadisələrdən biri 1994-cü il aprelin 29-da ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə keçirilən geniş müşavirədə polis orqanlarında zəngin təcrübəsi, yüksək peşəkarlığı, dövlətçiliyə sədaqəti ilə seçilən Ramil Usubovun daxili işlər naziri təyin olunması oldu. Ulu öndər Ramil Usubova, onun sədaqətinə və peşəkarlığına etibarını belə ifadə etmişdi: "Ramil Usubova tam inanır, prezident kimi ona etimad göstərirəm və bir daha hamınızdan tələb edirəm ki, ona kömək göstərəsiniz... Mən naziri daim müdafiə edəcək, nazirliyin bütün məsələlərinə baxaraq onları şəxsən özüm həll edəcəyəm. Nazirə səlahiyyət verirəm ki, orada vəziyyəti dəyişdirmək üçün lazımi tədbirlər görsün. Mən də onun təkliflərini müdafiə edəcəyəm. Ancaq xəbərdarlıq edirəm, kim buna mane olarsa, bu işləri pozmağa cəhd göstərərsə, onlara qarşı çox ciddi tədbirlər görüləcək və mən heç kəsi bağışlamayacağam".

1994-cü ildə Ramil Usubovun daxili işlər naziri təyin olunmasından sonra nazirlikdə köklü dəyişikliklər və islahatlar aparılmış, əvvəlki illərin mənfi təcrübəsi təhlil olunaraq nəticələr çıxarılmış, nöqsanlar və çatışmazlıqlar aradan qaldırılmışdır. Xüsusilə ötən illərdə düzgün olmayan kadr siyasəti nəticəsində daxili işlər orqanlarında işə götürülmüş, vəzifələrə təyin olunmuş simasız və polis adına ləkə gətirən əməkdaşlar polis orqanlarından kənarlaşdırılmış, sədaqətli, vətənpərvər, savadlı və potensiallı gənclərlə daxili işlər orqanlarının sıraları zənginləşdirilmişdir. Daxili işlər naziri Ramil Usubovun rəhbərliyi altında 1994-cü ildən başlayaraq cinayətkarlığa qarşı amansız mübarizə aparılmış, həyata keçirilmiş tədbirlər nəticəsində cinayətlərin azalması meyli ardıcıl və dönməz xarakter almışdır.

Ulu öndər tərəfindən 1994-cü il avqust ayının 9-da "Cinayətkarlığa qarşı mübarizənin gücləndirilməsi, qanunçuluğun və hüquq qaydasının möhkəmləndirilməsi tədbirləri haqqında" fərmanın imzalanması mükəmməl hüquq-mühafizə siyasətinin həyata keçirilməsi istiqamətində DİN-in də fəaliyyətinə əhəmiyyətli dərəcədə təsir göstərdi. Xüsusilə fərmanın 7-ci maddəsinə əsasən Daxili İşlər Nazirliyinin tərkibində Mütəşəkkil Cinayətkarlığa, Terrorizmə və Banditizmə Qarşı Mübarizə İdarələrinin yaradılması cinayətkarlığa qarşı mübarizə sahəsində mühüm rol oynadı.

1999-cu il oktyabrın 28-də "Polis haqqında", noyabrın 11-də isə "Əməliyyat-axtarış fəaliyyəti haqqında" Qanunların qəbul olunması DİN-in fəaliyyətinin daha da təkmilləşməsi istiqamətində mühüm əhəmiyyət kəsb etdi. "Polis haqqında" Qanun hüquq mühafizə orqanları sistemində mühüm yer tutan polisin fəaliyyətini nizama salan qanunvericiliyin əsaslarının yaradılmasına və bu sahədə mövcud olan hüquqi boşluqların aradan qaldırılmasına səbəb oldu. Əməliyyat-axtarış fəaliyyətinin həyata keçirilməsi ilə bağlı hüquqi münasibətlərin tənzimlənməsi və əməliyyat-axtarış tədbirlərinin tətbiqində hüquqi təminatlar sisteminin müəyyən edilməsi sahəsində isə "Əməliyyat-axtarış fəaliyyəti haqqında" Qanun əvəzsiz rol oynadı.

2001-ci il iyunun 29-da qəbul edilmiş "Azərbaycan Respublikasının daxili işlər orqanlarında xidmət keçmə haqqında" Əsasnamə polisdə və Daxili İşlər Nazirliyi sisteminə daxil olan orqan və hissələrdə xidmət keçmənin qaydalarını və şərtlərini, bu orqanların vəzifəli şəxslərinin hüquqi vəziyyətinin əsaslarını müəyyənləşdirmiş, ulu öndər Heydər Əliyevin 2001-ci il 30 iyun tarixli 518 saylı Fərmanı ilə qəbul olunmuş Əsasnamə isə DİN-in strukturunun təsdiq edilməsinə xidmət etmişdi.

Ümumilikdə ulu öndər Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi 34 il ərzində Azərbaycanın daxili işlər orqanları böyük inkişaf yolu keçmiş, tərəqqi etmişdi. Bu illər daxili işlər orqanlarının siyasi, hüquqi, mədəni, maddi-texniki cəhətdən möhkəmlənməsinə və ölkə həyatının bütün sahələrində mühüm rol oynayan hüquq-mühafizə orqanı kimi formalaşmasına səbəb olmuşdu.

Bu gün ulu öndərin irsini layiqincə yaşadan və siyasi kursunu uğurla davam etdirən möhtərəm Prezidentimiz, Silahlı Qüvvələrimizin Ali Baş Komandanı cənab İlham Əliyevin rəhbərliyi altında gedən və bütün dövlət strukturlarını əhatə edən inkişaf və müasirləşmə prosesləri daxili işlər orqanlarının fəaliyyətinə də öz müsbət təsirini göstərmişdir. Polis orqanlarının imkanlarının genişləndirilməsi, polis işçilərinin maddi və sosial təminatının yaxşılaşdırılması məqsədilə polis əməkdaşlarının əmək haqqının artırılması və sosial müdafiəsinin gücləndirilməsi, həmçinin polis orqanlarının maddi-texniki bazasının daha da möhkəmləndirilməsi istiqamətində Prezidentin 2004-cü il 30 iyun tarixli sərəncamı böyük rol oynamışdır. "Azərbaycan Respublikasında polis orqanlarının fəaliyyətinin təkmilləşdirilməsinə dair" xüsusi Dövlət Proqramının qəbul olunması müasir dövrün tələblərinə uyğun islahatların aparılmasında, maddi-texniki bazanın və şəxsi heyətin sosial müdafiəsinin gücləndirilməsində mühüm əhəmiyyət kəsb etmişdir.

Qeyd etmək lazımdır ki, müasir dünyada gedən proseslər və baş verən dəyişikliklər, qloballaşma, ölkəmizin sürətli sosial-iqtisadi inkişafı DİN-in strukturunun daha da genişləndirilməsinə və fəaliyyətinin təkmilləşməsinə gətirib çıxarmışdır. Nazirliyin strukturunda Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsi, İnsan Alverinə qarşı Mübarizə Baş İdarəsi, Baş Narkotiklərlə Mübarizə İdarəsi, Daxili Təhlükəsizlik İdarəsi, "102" xidməti - Zəng mərkəzi Sistemi", "Təhlükəsiz şəhər" Avtomatlaşdırılmış İdarəetmə Mərkəzinin yaradılması, daxili işlər orqanlarının yeni inzibati binalarla, avtomobillərlə, xidməti avadanlıqlarla və texniki vasitələrlə təchizatının gücləndirilməsi ölkədə mütəşəkkil cinayətkarlığa, insan alverinə, narkotiklərin qanunsuz dövriyyəsinə qarşı mübarizənin səmərəliliyinin artırılmasına, ictimai-siyasi sabitliyin və asayişin daha möhkəm şəkildə qorunmasına böyük töhfə vermişdir.

Daxili işlər orqanları üçün yüksək ixtisaslı, mükəmməl savada, bilik, bacarıq və vərdişlərə yiyələnmiş, fiziki cəhətdən sağlam və qüvvətli polis zabitlərinin hazırlanması işini həyata keçirən DİN-in Polis Akademiyası nazirliyin kadr potensialının təmin olunmasında əvəzsiz rol oynayır. Hələ 2002-ci il iyul ayının 2-də Azərbaycan polisinin yaranmasının 84-cü ildönümü münasibəti ilə Respublika sarayındakı çıxışı zamanı Ulu Öndər Heydər Əliyev Polis Akademiyasının əhəmiyyətini nəzərdə tutaraq qeyd etmişdi: "...Akademiyanı genişləndirin. Özünüzə mütəxəssis hazırlayın. Polis orqanları, Daxili İşlər Nazirliyi silahlı qüvvədir. Yaxşı mütəxəssis polis kadrları hazırlamaq lazımdır. Bunun üçün də xüsusi məktəbdə təhsil alınmalıdır. Mən demişəm: polis peşəsi çətin, ağır peşədir. Amma şərəfli peşədir. Kim özünü bu peşəyə həsr edirsə, o, həmişə xalq, millət içində nüfuzlu adam olacaqdır. Sağlığında da, dünyasını dəyişəndən sonra da."

Ölkə başçısı cənab İlham Əliyevin və DİN rəhbərliyinin Polis Akademiyasına göstərdiyi qayğı və diqqətin nəticəsi olaraq Akademiyada beynəlxalq təcrübə və standartlar səviyyəsində hərtərəfli islahatlar aparılmış, müasir elmi-metodik kabinetlər, laboratoriyalar, kriminalistik təlim otaqları yaradılmış, tədris və məişət korpusları, xüsusi təchiz olunmuş auditoriyalar, idman kompleksi, sıra meydanları və s. tikilərək istifadəyə verilmiş, zəngin fondu, elektron kataloqu olan kitabxana yaradılmışdır. Maddi-texniki təminatın gücləndirilməsi istiqamətində aparılmış işlər çərçivəsində, daimi və dəyişkən heyətin idmət şəraitinin yaşılaşdırılması məqsədilə inzibati bina əsaslı təmir edilmiş, yeni Növbətçi hissə yaradılaraq zəruri mebel və texniki avadanlıqlarla təmin olunmuş, kursantların sərbəst vaxtlarından səmərəli istifadəsinin təşkili üçün hər birində oxu zallarının da yaradılması nəzərə alınmaqla yataqxanalar əsaslı şəkildə təmir edilmiş və yeni yataqxana binaları tikilib istifadəyə verilmişdir. Mühazirə zalları və məşğələlərin keçirilməsi üçün nəzərdə tutulmuş otaqların əksəriyyəti müasir texniki vasitələr - "ağıllı lövhə"lər və mebellə, habelə rəhbərlik tərəfindən tədris prosesinə nəzarəti həyata keçirmək üçün videonəzarət sistemləri ilə təchiz edilmişdir.

Polis Akademiyasında Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin həyat və yaradıcılığının dərindən öyrənilməsinə, eyni zamanda təhsil alanların ümumi intellektual səviyyəsinin yüksəldilməsinə xidmət edən "Heydər Əliyev Mərkəzi" istifadəyə verilmişdir. Mərkəzdə daimi və dəyişkən heyətin asudə vaxtının daha da səmərəli keçirilməsi və mütaliə qabiliyyətinin inkişaf etdirilməsi məqsədilə Azərbaycan xalqının Ulu Öndər Heydər Əliyev irsinin öyrənilməsi mərkəzi, elektron kitabxana, fotostudiya, virtual sinif, xarici dili öyrənmə mərkəzi və şahmat dərnəyi otağı, eləcə də 75 yerlik konfrans zalı fəaliyyət göstərir.

Müasir polisin yüksək nəzəri biliklərə və peşə hazırlığına malik ixtisaslı kadrlarla komplektləşdirilməsi kimi mühüm məsələni daim diqqət mərkəzində saxlayan ölkə rəhbərliyi, xüsusilə Azərbaycan Respublikasının daxili işlər naziri, general-polkovnik Ramil Usubov respublikada ali təhsilli polis kadrları hazırlayan yeganə təhsil müəssisəsi olan Polis Akademiyasına böyük qayğı ilə yanaşırlar. Tikintisinə Azərbaycan Respublikasının daxili işlər naziri, general-polkovnik Ramil Usubovun təşəbbüsü ilə başlanılmış və Azərbaycan polisinin yaranmasının 100-cü ildönümü ərəfəsində təhvil verilməsi nəzərdə tutulan müasir tədris korpusu bu qayğının bariz nümunəsidir.

Kursantların elmi-tədqiqat işlərinin aparılmasına cəlb olunması, müxtəlif elmi tədbirlərdə iştirakının təmin edilməsi vasitəsilə onlarda yaradıcı və elmi potensialı inkişaf etdirmək, eləcə də DİO əməkdaşlarının və akademiyanın nüfuzunu yüksəltmək və möhkəmləndirmək məqsədilə DİN-in Polis Akademiyasında "Kursant elmi cəmiyyəti" təsis edilmiş, Dövlət və hüquq nəzəriyyəsi kafedrasının nəzdində "Hüquq klinikası", Kriminalistika kafedrasının nəzdində "Kriminalistik tədqiqatçı", Cinayət prosesi kafedrasının nəzdində isə "Gənc müstəntiq" Kursant Elmi Dərnəkləri yaradılmışdır.

Daxili işlər naziri, general-polkovnik Ramil Usubovun 4 avqust 2012-ci il tarili Q17-001-12 nömrəli qərarı ilə I və II dərəcəli "İdmançı kursant", 8 iyul 2013-cü il tarixli Q17-001-13 nömrəli qərarı ilə isə "Əlaçı kursant" döş nişanları təsis edilərək Əsasnamələri təsdiq olunmuşdur. Akademiyada təhsildə fərqlənən və yüksək nizam-intizamı ilə seçilən kursantlar üçün "Heydər Əliyev" təqaüdü təsis edilmişdir.



Tədris planlarının dinamikliyini və informasiya mübadiləsinin çevikliyini təmin etmək məqsədilə 2006-cı ildə DİN-in Polis Akademiyasının internet veb saytı yaradılmış, Akademiyanın fəaliyyəti haqqında məlumatların daha geniş kütləyə çatdırılması məqsədilə 2013-cü ilin avqust ayında "Polis Akademiyası" qəzeti təsis edilmişdir. Ali Attestasiya Komissiyasının rəsmi jurnalları siyahısına daxil edilmiş "DİN-in Polis Akademiyasının Elmi xəbərləri" adlı elmi-hüquqi jurnalın yaradılması professor-müəllim heyətinin elmi-yaradıcılıq fəaliyyətinin inkişaf etdirilməsində, onun respublikamızda və xaricdə fəaliyyət göstərən ali təhsil müəssisələri arasında tanınmasında və əməkdaşlığın inkişaf etdirilməsində mühüm rol oynayır.

Azərbaycanda peşəkar polis kadrlarının yetişdirilməsi məsələsinə ölkə rəhbərliyi səviyyəsində qayğı və diqqət göstərilir və bu məsələ daim nəzarətdə saxlanılır. Ölkə başçısı cənab İlham Əliyev 2007 və 2013-cü illərdə Polis Akademiyasına gəlmiş, təhsil müəssisəsinin işi və şəraiti ilə yaxından tanış olmuşdur. Prezidentin "...Polis Akademiyasında oxuyan kursantlar müasir tələblərə cavab verməlidirlər, ona görə tədris prosesinə çox böyük diqqət yetirilməlidir. Akademiyanı bitirən kursantlar ən yüksək meyarlara, ən yüksək tələblərə cavab verməlidirlər" tövsiyəsi akademiyanın fəaliyyətində müəyyənedici prinsip kimi əsas götürülmüşdür.

Prezident cənab İlham Əliyev polisi, onun fəaliyyətini, xalqa və dövlətə xidmətini, sədaqətini yüksək qiymətləndirərək qeyd etmişdir: "Polisə olan hörmət dövlətə olan hörmətdir. Polis əməkdaşları qanunun keşiyində dayanırlar. Polis əməkdaşları cinayətkarlığa qarşı mübarizə aparırlar. Onlar öz həyatlarını risk altına qoyurlar və vətəndaşlar bunu unutmamalıdırlar. Yəni cəmiyyətin, ölkəmizin rahat, təhlükəsizlik şəraitində yaşamasını polis orqanları təmin edirlər. Mən görülmüş bu işləri yüksək qiymətləndirirəm və bilirsiniz ki, polis orqanlarını daim müdafiə edirəm və müdafiə edəcəyəm".

Azərbaycanın daxili işlər orqanlarında bu gün də uğurlu islahatlar həyata keçirilir, peşəkarlıq artır, cinayətkarlığa qarşı mübarizə sahəsində müsbət nəticələr əldə olunur, sıralarımızda təcrübəli, saf mənəviyyatlı, xalqına, dövlətinə sədaqətli peşəkar kadrlar xidmət edir. Yüksək mənəviyyata, fiziki və döyüş hazırlığına malik Azərbaycan polisi hər an Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrimizin Ali Baş Komandanı cənab İlham Əliyevin əmri ilə işğal altında olan torpaqlarımızı düşmən tapdağından azad etməyə, bu yolda canını belə əsirgəməməyə hazırdır.

**Rəhim MƏCNUNOV,**
**DİN-in Polis Akademiyasının İctimai elmlər kafedrasının rəisi, polis kapitanı.**

## Yeni nəşrlər




**Şəfiqə Əfəndizadə. Seçilmiş əsərləri (1903-1925). Bakı, "Elm və təhsil", 2017, 426 s.)**

Layihənin rəhbəri və məsləhətçisi Elmira Ələkbərova, transfoneliterasiya edən və ön sözün müəllifi filologiya üzrə fəlsəfə doktoru Şəhla Abdullayeva, elmi redaktoru akademik Möhsün Nağısoylu, elmi rəyçisi AMEA-nın müxbir üzvü, fəlsəfə elmləri doktoru, professor Könül Bünyadzadənin zəhməti sayəsində işıq üzü görən bu kitab toplu halında ilk dəfə nəşr olunur. Kitabın annotasiyasında qeyd edildiyi kimi, ilk azərbaycanlı qadın jurnalist və publisist, Zaqafqaziyada ilk Azərbaycan dili müəllimi olmuş Şəfiqə xanım Əfəndizadənin 1903-1925-ci illərdə dövri mətbuatda nəşr etdirdiyi məqalə və hekayələr, həmçinin ayrıca kitab şəklində nəşr olunmuş "İki yetim, yaxud Kərimin himməti", "Qapıçı qız" əsərləri və AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunda saxlanılan "Xatirələr"indən parçalar toplanmışdır.

Filologiya üzrə fəlsəfə doktoru Şəhla Abdullayevanın kitaba yazdığı geniş mündəricəli ön sözü ilk növbədə Şəfiqə Əfəndizadənin tərcümeyi-halı, keçdiyi həyat yolu, yaradıcılığı ilə bağlı mükəmməl bilgi verməsilə maraq doğurur. Eləcə də dövrün tarixi mənzərəsi XX əsrin əvvəllərində Bakıda böyük messenat H.Z.Tağıyevin səyi, maddi yardımı ilə açılan dünyəvi məktəb—Aleksandriyski rus-müsəlman qız məktəbi haqqında əsasən Şəfiqə xanımın özünün xatirələrinə istinadən bu gün də böyük əhəmiyyət kəsb edən məsələlər barədə fikirlər söylənilir. Publisist Ş.Əfəndizadənin Azərbaycan ictimai fikir tarixində tutduğu yeri və mövqeyi onun dövri mətbuatda dərc etdirdiyi çoxlu sayda əsərlərinin timsalında xarakterizə olunur. Böyük çətinliklər və məşəqqətlər içərisində keçən bu şərəfli həyat yolu bu gün mətbuata gələn gənc nəsil üçün örnəkdir. Şəfiqə xanım həm də bədii yaradıcılıqla məşğul olmuş, həmin dövrdə həyat gerçəkliklərini güzgü kimi əks etdirən hekayələrində ("Qız ilə anası arasında mühavirə", "Bəhirədən Münirəyə", "Al qırmızı kofta", "İki sima", "Rəna", "Evlənmək"...) fanatizmin, mədəni geriliyin buxovlarında əzilən qadınlarımızın həyatını təsvir etmiş, bədii obrazlar yaratmışdır. Onun bütün əsərləri öz mövzusuna, ideya-bədii xüsusiyyətlərinə, fakt və hadisələrə tarixilik nöqteyi-nəzərindən yanaşılması baxımından böyük əhəmiyyət kəsb edir.

Kitab Azərbaycanın ziyalı, maarifpərvər qadınlarının mübarizə tarixinin tədqiqi ilə məşğul olan mütəxəssislərlə yanaşı, geniş oxucu kütləsi üçün nəzərdə tutulmuşdur.




**Əliş Əhmədoğlu. Qədim Oğuz yurdu Şəhərcik. Bakı, "Nərgiz", 2018, 300 s.**

Kitabın ideya müəllifi Nazim Sabir oğlu Əsədovdur. Redaktorlar şair-publisist, "Qızıl qələm" və akademik M.Mehdizadə adına mükafatın laureatı Hidayət Musabəyli və şair, tənqidçi, "Qızıl qələm" mükafatı laureatı Sultan Orucoğludur.

Kitab adından da bəlli olduğu kimi, ulu torpaqlarımız olan Qərbi Azərbaycanın Qafan rayonunun Şəhərcik kəndi haqqındadır. Burada Şəhərcik kəndinin tarixi, təbiəti, etnoqrafiyası, orada yaşayan azərbaycanlıların həyatı, milli münaqişələr zəminində ermənilərlə yaşam mübarizəsi, nəhayət, 1988-ci ildə dədə-baba torpaqlarından qovulmuş soydaşlarımızın qəlblərində açılmış yaralar, yurd-torpaq itkisinin acıları öz əksini tapmışdır. Kitabda həmçinin Zəngəzur mahalı, Qafan şəhəri və onun başqa kəndləri barədə də tarixi məlumatlar verilir. Əliş Əhmədli bu yerlərin görkəmli şəxsiyyətləri, el-obada yaxşı əməlləri ilə tanınmış adamlar haqqında qələmə aldığı maraqlı yazıları, ithafları da oxucuların diqqətinə çatdırmışdır.

Şəhərcik kəndinin təbiəti, coğrafi mövqeyi, dağları, buz bulaqları, bağ-bağatları haqqında oxuyanda mənzərələr göz önündə canlanır və bu təbii təsvirlərdən heyrətlənirsən. Havası təki saf təbiətli insanların, elm xadimlərinin, yaradıcı adamların yaratdığı əsərlərə etinasız qalmaq olmur. Əsər ona görə cəlbedici, maraqlıdır ki, onun müəllifi bu tarixi yerin doğma balasıdır. Gördükləri, yaşadıqları bu gün yaddaşını göynədir, o yerlər üçün qəlbi sızıldayır.

Kitabda çoxçeşidli, həm də bir-birini tamamlayan məlumatlar, xalq yaradıcılığı nümunələri, o yerlərin tarixində izi qalan qəhrəman oğullarımızın adları keçdiyi həyat yolları Şəhərciyin doğma sakinlərinin azərbaycançılıq ideologiyası ilə yaşadığının bariz nümunəsidir. 1941-1945-ci illərdə Böyük Vətən müharibəsində iştirak edən igidlərin—qayıdan və qayıtmayanların adları, Şəhərcik kəndindən olan Qarabağ şəhidləri, Şəhərcik ərazisindəki toponimlər, kəndin yaylağı bulaqları, çeşmələri, meşələrinin hikməti, abidələri, tayfaları və bu qəbildən bir çox tarixi hadisələr, şəxsiyyətlər, məskənlər, kitabın böyük dəyərə malik olduğunu söyləməyə əsas verir. Kitabda ta qədimlərdən Şəhərcik kəndində keçirilən mərasimlər (toy, yas mərasimləri) haqqında yazılar da o yerlərin keçmiş adət-ənənələrinə işıq salır. Ermənilərin Qərbi Azərbaycanda törətdikləri müsibətlər onların işğalçılıq əməlləri də müəllifin şahidliyi ilə açılaraq nəql olunur. Müəllif kitabda o yerlərlə bağlı heç nəyi, heç kimi unutmadan xatırlayır, yada salır, oxuculara çatdırır. Fikrimizcə belə kitabları abidə kitablar adlandırmağımız doğru olar. Bu mənada Əliş Əhmədoğlunun "Qədim Oğuz yurdu Şəhərcik" kitabını da həmin abidə kitabları sırasında görməyimiz təbiidir.




**Gülxani Pənah. Salatın Əhmədlinin yaradıcılığına ümumi baxış. Bakı, "Ecoprint", 2018, 552 s.**

Kitabın elmi redaktorları professor İfrat Əliyeva və filologiya üzrə elmlər doktoru Yeganə İsmayılovadır.

Ədəbiyyatşünas alim Salatın Əhmədlinin bədii yaradıcılığına, nəsrinə, elmi-publisistik fəaliyyətinə, nəzər yetirən G.Pənah bu tədqiqat əsərini maraqlı bir strukturda işləmişdir. Onun elmi-ədəbi irsinə müxtəlif aspektdən yanaşmış, alimin əsərlərini təhlil etmişdir. İdeya-bədii cəhətdən maraq doğuran monoqrafiyada tədqiqat predmeti olan bütün əsərləri elmi-nəzəri cəhətdən araşdırılmışdır. Onları mövzusuna, növlərinə görə qruplaşdıran müəllif bu əsərləri özünün doğurduğu ideya istiqamətindən işləmişdir. "Bədii yaradıcılıq bədii düşüncə müstəvisində", "S.Əhmədlinin əsərlərində qadın obrazları", "S.Əhmədlinin yaradıcılığında Qarabağ mövzusu", "20 Yanvar —Qan yaddaşımız", "S.Əhmədlinin tədqiqatlarında dil siyasətinin dövlət səviyyəsində həlli məsələsi", "Heydər Əliyev sənətkar şəxsiyyəti və yaradıcılıq prosesi haqqında", "Tarixi həqiqətlərin bədii təsdiqi kitabı", "Dilimiz, tariximiz..." ilk növbədə təsvürümüzdə S.Əhmədlinin bir yazıçı, alim, tədqiqatçı olaraq əsərləri haqqında ciddi təəssürat yaradır. Başqa sözlə bu əsərlərin ideya, məzmun məziyyətləri monoqrafiyanın azərbaycançılıq ideyalarının inkişafı istiqamətində işləndiyindən xəbər verir. "Dilimiz, tariximiz" bölməsində müəllif yazır: "Dilin inkişafı məsələsi, insanın yaranışı, nitqinin inkişafı, ümumilikdə bəşərin təşəkkülü "geoloji dövr" adlandırılan dördüncü dövrlə bağlanır. Bu dövrün bəzi mənbələrdə 4, bəzi mənbələrdə son zamanlar 6 milyon il davam etdiyi müəyyən edilib: "Arxeoloqlar bu tarixi daş dövrü, tunc dövrü, dəmir dövrü kimi üç dövrə ayırırlar..."

Gülxani Pənah bu dəyərli monoqrafiyası ilə Azərbaycan ədəbiyyatşünaslıq tariximizi yeni bir tədqiqatçı alimin yaradıcılıq yolu ilə zənginləşdirmişdir.




**Əli Rza Xələfli. Bir ayrılıq odu var... (poema və ədəbi publisistika). Bakı, 3 saylı mətbəə, 2018, 304 s.**

Redaktor və ön sözün müəllifi filologiya elmləri doktoru, professor Təyyar Salamoğludur.

Kitab redaktorun "Dördmərtəbəli sarayların harayı" məqaləsi ilə açılır. Burada şair, publisist, tədqiqatçı Əli Rza Xələflinin "Bir ayrılıq odu var..." poeması təhlilə cəlb olunub. Bu poema-essedə görkəmli şair-şərqşünas Hüseyn Kürdoğlunun həyatı, yaradıcılıq istiqamətləri, eləcə də mühiti və dövrü yüksək poetik ruhla təqdim və tərənnüm olunur. Kitaba yazılmış annotasiyada qeyd olunur ki, bu əsər bir çox poetik yenilikləri ilə diqqəti cəlb edir. Ümumiyyətlə, şair Əli Rza Xələfli ustadı Hüseyn Kürdoğlunun bədii obrazını genişliyi və əhatəliliyi ilə ədəbi irsimizdə ilk dəfə canlandırmışdır. Müəllifin daxili yanğısı, mənəvi varislik borcuna sədaqəti oxucuda məmnunluq duyğuları yaradır.

Kitabın ikinci bölməsi "Ustad yanan ocaqdı..." adlanır. Bu bölmə Hüseyn Kürdoğlunun həyat və yaradıcılığı haqqında ədəbi-publisistik məqalələr, düşüncələr və xatirə yazılarından ibarətdir. Burada da müəllifin canlı dili sənətə və sənətkara sevgi təlqin edir və oxucunun yaradılanın əbədiyaşarılığına inandırır.

Kitab Hüseyn Kürdoğlu yaradıcılığını sevənlər, eləcə də geniş oxucu kütləsi üçün nəzərdə tutulmuşdur.




**Zəminə Xınalı. Ordu marşları (miniatür kitab). Bakı, "Araz", 2018, 120 s.**

Azərbaycan Xalq Cümhuriyyətinin və Azərbaycan Silahlı Qüvvələrinin 100 illik yubileyinə həsr olunmuş bu kitabda müəllifin vətənə, ordumuza, onun igid əsgərlərinə, vətənpərvər, millətsevər oğullarına həsr etdiyi poetik nümunələr toplanıb. Mübariz ruhlu, sülh, əmin-amanlığa çağırış olan, torpaqlarımıza sevgi hissi aşılayan, onun keşiyində dayanmağı, göz bəbəyi kimi qorumağı təlqin edən bu şeirlər Zəminə Xınalının bir könül çırpıntılarına bənzəyir. Kitaba xalq artisti, professor, general-mayor Yusif Axundzadə maraqlı bir ön söz yazmışdır. O, şair Z.Xınalının keçdiyi həyat yoluna, yaradıcılığına özünün müşahidələri əsasında münasibətini bildirir, poetik nümunələrini yüksək dəyərləndirir. Müəllif yazır: "Zəminə Xınalı vətənpərvər şairdir. Hərbi-vətənpərvərlik mövzusunda zəngin yaradıcılığa malikdir. Bir çox mahnı və marşlarını müəllifidir. O cümlədən, H.Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin, Azərbaycan Ali Hərbi Dənizçilik Məktəbinin, Dünya Azərbaycanlılarının Həmrəylik marşının və Azərbaycan Sülhməramlı Qüvvələrinin sülh marşının, Xüsusi Mühafizə Briqadasının, Ağsaqallar Şurasının, Azərbaycan Dəniz Akademiyasının, Mərkəzi Klinik Hospitalının, Xəzər Dəniz QSC-nin, Mülki Müdafiə Qoşunlarının marşlarının sözləri onun qələminə məxsusdur. Onun əsərləri Azərbaycan Radiosunun Qızıl Fondunda saxlanılır".

Zəminə Xınalı yeganə qadın şairədir ki, hərbi-vətənpərvərlik mövzusunda daim davamlı olaraq əsərlər yazır: "Ordu marşları" vətənini, torpağını sevən, onun təəssübünü çəkən hər bir Azərbaycan vətəndaşının stolüstü kitabı olmağa layiqdir.




**Zemfira Məhərrəmli. Qarabağ müharibəsi: zərif talelər (sənədli hekayələr və portret yazılar). Bakı, CBS, 2018, 496 s.**

Azərbaycan qadınının şərəfli qəhrəmanlıq tarixi var və Qarabağ müharibəsində döyüşən qızlarımız bu tarixə yeni səhifələr yazıblar. Yazıçı-publisist Zemfira Məhərrəmlinin bu kitabı xalqımızın azadlıq mücadiləsinə, erməni işğalçıları və onların havadarlarına qarşı hərb qovğasında kişilərlə çiyin-çiyinə döyüşən qadınlarımızın şücaətinə həsr olunub. Müəllif kitabda Qarabağ müharibəsi qurbanlarının—məşəqqətli əsirlik həyatına məhkum olmuş azərbaycanlı qız-gəlinin ağrı-acılı taleyindən də bəhs edir. Kitabda toplanan müxtəlif illərdə qələmə alınmış yazılar Qarabağ savaşı ilə üz-üzə qalan zərif talelər haqqında bəzən sevindirən, qürurlandıran, bəzən isə ürək göynədən hekayələridir.

Z.Məhərrəmli qanlı-qadalı illərdə qələmi ilə döyüşən həmkarlarını—xanım jurnalistləri də unutmayıb, onların haqqında portret yazılarını kitaba daxil edib.

Kitab geniş oxucu kütləsi üçün nəzərdə tutulub.




**Çingiz Qurbanov. Azərbaycanda pul tədavülü və bank işinin təkamülü (B.e.ə. IX əsr—2014-cü il). Bakı, "Avropa" nəşriyyatı, 2018, 540 s.**

Dövlətçilik tariximizdə xalqın ictimai həyatında böyük əhəmiyyət kəsb edən, minilliklərin yaddaşından günümüzə qədər yol gələn, hər dövrün öz varlığını, ənənəsini əks etdirən pul tədavülünün geniş aspektdə işlənilməsi və kitab halında nəşr olunması olduqca maraq doğuran bir hadisədir. Kitaba görkəmli alimlər—AMEA-nın müxbir üzvü, professor Akif Musayev, Azərbaycan Dövlət İqtisad Universitetinin professoru Mübariz Bağırov, AMEA Milli Azərbaycan Tarixi Muzeyinin "Numizmatika və epiqrafika" elmi fond şöbəsinin müdiri, professor Əli Rəcəbli və "İrşad" Elmi Araşdırmalar Mərkəzinin direktoru, professor Rafiq Əliyev rəy vermişdir.

Kitab iqtisadçılar, tarixçilər, dövlətçilik və iqtisadiyyat tarixi ilə maraqlanan mütəxəssislər, tələbələr üçün elmi mənbə olmaqla yanaşı, həm də Azərbaycanda pul tədavülü və bank işinin tarixini işıqlandıran dəyərli vasitədir.

**Təqdim etdi:**
**Şəfəq NASİR,**
**"Respublika".**

# Qəbələdə keçirilən Beynəlxalq yarışa və Ümumrespublika birinciliyinə yekun vurulub





**İyunun 30-da Qəbələ şəhərində Fövqəladə Hallar Nazirliyinin təşkilatçılığı, Fövqəladə Hallar Nazirliyi işçilərinin Həmkarlar İttifaqının, Təhsil, Gənclər və İdman nazirliklərinin dəstəyi ilə keçirilmiş "Gənc xilasedici" VI Beynəlxalq yarışına və "Gənc xilasedici və yanğınsöndürən" VII ümumrespublika birinciliyinə yekun vurulub.**

AZƏRTAC-ın müxbiri xəbər verir ki, yekun tədbirdə iştirak edən Azərbaycan Respublikasının fövqəladə hallar naziri, general-polkovnik Kəmaləddin Heydərov, gənclər və idman naziri Azad Rəhimov, təhsil nazirinin müavini Firudin Qurbanov komandaların üzvləri ilə görüşərək, onların sıra, fiziki və taktiki hazırlıqları, geyimləri ilə tanış olublar.

Sonra gənc xilasedicilərin nümunəvi təlim çıxışları nümayiş olunub. Qəbələ şəhərindəki Heydər Əliyev Konqres Mərkəzində şərti olaraq baş verən yanğının söndürülməsi, köməksiz vəziyyətdə qalan insanların xilas edilməsi əməliyyatı yerinə yetirilib.

Konqres Mərkəzində təşkil olunan mükafatlandırma mərasimində əvvəlcə Azərbaycan Respublikasının dövlət himni səsləndirilib, yarışlardan bəhs edən videoçarx nümayiş etdirilib.

Məlumat verilib ki, "Gənc xilasedici və yanğınsöndürən" ümumrespublika birinciliyi artıq 7-ci dəfədir təşkil olunur. Bu yarışların keçirilməsində məqsəd yeniyetmə və gənclərin fövqəladə hallara hazırlıq səviyyəsinin yüksəldilməsi, məktəblilər arasında sağlam həyat tərzinin təbliği, onlara şəxsi və ictimai təhlükəsizliyə məsuliyyətli yanaşma hissinin və hərbi-vətənpərvərlik ruhunun aşılanmasıdır. Yarış ümumilikdə üç mərhələdə - rayon (şəhər), zona və ümumrespublika yarışları mərhələləri üzrə təşkil olunub. Zona mərhələsində qalib gələn komandalar ümumrespublika final yarışlarında iştirak hüququ əldə ediblər. Builki ümumrespublika birinciliyində 10 rayon və şəhərin komandaları mükafatlar uğrunda mübarizə aparıblar.

"Gənc xilasedici" VI Beynəlxalq yarışında isə Azərbaycan, Türkiyə, Rusiya, Belarus, Pakistan, Gürcüstan, Rumıniya və Qazaxıstan respublikalarının komandaları qüvvələrini sınayıblar. Moldova nümayəndə heyəti isə yarışları qonaq qismində izləyib.

Gənclər altı gün ərzində "Manelər zolağı", "Kombinə edilmiş yanğın estafeti", "Axtarış-xilasetmə işi", "Komandaların təqdimatı" və "Divar qəzeti" mərhələləri üzrə mübarizə aparıblar. Beynəlxalq yarışda birinci yeri Azərbaycan, ikinci yeri Belarus, üçüncü yeri Qazaxıstan komandaları tutublar. Ümumrespublika birinciliyində isə ilk üç yeri müvafiq olaraq Bakı şəhəri Nizami rayonu 220 nömrəli tam orta məktəbin, Quba və Qax rayonlarının komandaları layiq görülüb.

Mükafatları qalib komandaların üzvlərinə fövqəladə hallar naziri Kəmaləddin Heydərov, gənclər və idman naziri Azad Rəhimov və təhsil nazirinin müavini Firudin Qurbanov təqdim ediblər. Qaliblərə fəxri fərman və qiymətli hədiyyələr, digər iştirakçılara isə xatirə hədiyyələri verilib.

Sonda uşaqların ifasında rəngarəng musiqi nömrələri və rəqslər təqdim olunub.

**AZƏRTAC**

**Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin "Bakı Telefon Rabitəsi" Məhdud Məsuliyyətli Cəmiyyəti**

**AÇIQ TENDERƏ DƏVƏT EDİR**

**Tender 1 lot üzrə keçirilir:**
**TR-069 Proqram təminatının və serverin satınalması**

Tender iştirakçılarına təklif edilir ki, "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, tender təkliflərini imzalanıb möhürlənmiş, ikiqat zərflərdə yazılı təqdim etsinlər. İddiaçılar öz tender təkliflərində bütün vergi və rüsumları, təyinat yerinə daşıma xərcləri nəzərə almalıdırlar.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlarına malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər 1000 (bir min) manat (ƏDV xaric) iştirak haqqını sifarişçinin aşağıdakı hesablaşma hesabına köçürdükdən sonra "Bakı Telefon Rabitəsi" MMC-nin Bakı şəhəri, Üzeyir Hacıbəyli küçəsi 48 ünvanında yerləşən inzibati binasında tenderin əsas şərtlər toplusunu ala bilərlər.

**VÖEN: 9900044741**
**Hesab:**
**AZ14AZPO91015461200420100157**
**Bank: Azərpoçt MMC PF 1**
**Kodu: 691011**
**Bankın VÖENİ: 9900037711**
**m/h:**
**AZ76NABZ01350100000000094944**
**S.W.İ.F.T: AZPOAZ22**
**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

Tenderin əsas şərtlər toplusu Azərbaycan dilində tərtib edilmişdir.

Tenderdə iştirak etmək istəyənlər **03.08.2018-ci il saat 17:00-dək** aşağıdakı sənədləri "Bakı Telefon Rabitəsi" MMC-nin Bakı şəhəri, Üzeyir Hacıbəyli küçəsi 48 ünvanında yerləşən inzibati binasında təqdim etməlidirlər (tender təklifi və təklifin təminatı 2% Bank Zəmanəti istisna olmaqla). Göstərilən vaxtdan gec təqdim edilən sənədlər qəbul edilməyəcəkdir.

*1. Tenderdə iştirak etmək üçün yazılı müraciət.*

*2. Tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi.*

*3. Tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır).*

*4. Tender təklifi dəyərinin 2 %-i həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır).*

*5. Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış.*

*6. İddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti.*

*7. İddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı.*

*8. İddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri.*

*9. İddiaçıların müvafiq mallar üzrə uyğunluq sertifikatları.*

*10. Digər sənədlər.*

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır).

İddiaçılar tender təklifini və bank təminatını **13.08.2018-ci il saat 17:00-a** qədər "Bakı Telefon Rabitəsi" MMC-nin Bakı şəhəri, Üzeyir Hacıbəyli küçəsi 48 ünvanında yerləşən inzibati binasında təqdim etməlidirlər. Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

Yuxarıda göstərilən sənədlər düzgün tərtib olunub vaxtında təqdim edildiyi təqdirdə tenderdə iştirak etmək istəyən malgöndərən iddiaçı kimi qeydə alınacaqdır.

İştirakçıların təklif zərfləri **14.08.2018-ci il saat 15:00-da** "Bakı Telefon Rabitəsi" MMC-nin Bakı şəhəri, Üzeyir Hacıbəyli küçəsi 48 ünvanında yerləşən inzibati binasında açılacaqdır. İştirakçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

Tenderlə əlaqədar daha ətraflı məlumat almaq üçün iştirakçılar əlaqələndirici şəxsə müraciət edə bilərlər.

Əlaqələndirici şəxs: Qafarov Elxan Misir oğlu, tel.: (+994 12) 493-84-99

**Tender Komissiyası.**

**BİLDİRİŞ**

"Aqrolizinq" Açıq Səhmdar Cəmiyyəti Ucar Pambıq emalı zavodunda quraşdırılmış texnoloji avadanlıqlara lazımi yağların və turşuların satınalınması məqsədi ilə kotirovka sorğusu keçirir.

İştirak etmək istəyənlər şərtlər toplusunu aşağıdakı ünvandan ala bilərlər:

Ünvan: Bakı şəhəri, Bakıxanov qəsəbəsi, B.Bünyadov-12.

Əlaqələndirici şəxs: Abdullayeva Vəfa Hikmət qızı (012) 425-66-94; (051) 255-92-40.

Kotirovka sorğusu üçün bağlı zərflərin qəbulunun son tarixi 04.07.2018-ci il saat 17:00.

**İdarə Heyəti.**

**"Oğuz-Aptek" ASC-nin təsisçilərinin nəzərinə!**

"Oğuz-Aptek" ASC-nin təsisçilərinin 12 avqust 2018-ci il tarixdə saat 11-də Oğuz şəhəri, H.Əliyev küçəsi-49 ünvanında ümumi yığıncağı keçirilərək, aşağıdakı mövzular müzakirə ediləcəkdir:

1) ASC-nin əmlakının (daşınmaz) satışı məsələsinin müzakirəsi;

2) Digər məsələlər;

**Əlaqə telefonu:** (055) 759-24-78

**SALYAN RAYON MƏRKƏZİ XƏSTƏXANASI 2018-Cİ İL ÜÇÜN AŞAĞIDAKI XƏRC MADDƏLƏRİNİN SATINALINMASI ÜZRƏ**

**KOTİROVKA SORĞUSU ELAN EDİR**

**1.** Camaşırların yuyulması və ütülənməsi xərci

Kotirovka təklifləri 11 iyul 2018-ci il tarixi saat 16:00-a kimi qəbul edilir.

**Ünvan:** Salyan rayonu, Kürqaraqaşlı kəndi
**Tel.:** 0-2125-5-46-99.
**Əlaqələndirici şəxs:** Sadıqov Calal Qaraş oğlu.
**VÖEN: 7000158881**

AZƏRBAYCANIN BÜTÖVLÜYÜ, MÜSTƏQİLLİYİ VƏ TƏRƏQQİSİ
RESPUBLİKA
REKLAM VƏ ELAN XİDMƏTİ
441-20-23

Əhmədova Lalə Fərman qızının adına olan Bakı şəhəri Bülbül pr., ev 29, mən. 44-ə verilmiş ÖM 217763 saylı qeydiyyat vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

**ALLAH RƏHMƏT ELƏSİN**

**"Optika-Mexanika" İstehsalat Birliyinin kollektivi müdafiə sənayesi naziri YAVƏR CAMALOVUN vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.**

**"Optika-Mexanika" İB-nin "Alov" zavodunun kollektivi müdafiə sənayesi naziri YAVƏR CAMALOVUN vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.**

**"Azon zavodu"nun kollektivi müdafiə sənayesi naziri YAVƏR CAMALOVUN vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.**

**"Avtomatik xətlər" Elmi İstehsalat Müəssisəsinin kollektivi müdafiə sənayesi naziri YAVƏR CAMALOVUN vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.**

**Baş redaktor**
**Teymur ƏHMƏDOV**

● Redaksiyanın telefonları:

İqtisadiyyat və islahatlar redaksiyası: **539-95-51;**
Siyasət, ictimai problemlər və analitik təhlil redaksiyası: **538-55-20;**
Beynəlxalq əlaqələr, dövlət quruculuğu və hüquq redaksiyası: **539-26-18;**
Humanitar siyasət redaksiyası: **538-25-70;**
Xəbərlər redaksiyası: **538-61-02;**
İctimai rəy və sosial problemlər redaksiyası: **539-95-51; 538-43-41 tel/faks;**
Qəbul otağı: **538-25-70;**
Katiblik: **538-25-70;**
Reklam və elan xidməti: **441-20-23.**



● Redaksiyanın ünvanı:

AZ1073, Bakı
Mətbuat prospekti, 529-cu məhəllə, VII mərtəbə.
**E-mail: resp@azdata.net**
**www.respublica-news.az**
*"Respublika" qəzetinin kompyuter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında ofset üsulu ilə çap olunmuşdur.*
Qeydiyyat № 7.

İndeks 0240
Tiraj 4292
Sifariş 023
Qəzetin satış qiyməti 40 qəpik

Məsul növbətçi
Kamal İBADOV

● Çapa imzalanmışdır
30.06.2018